

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## KƏLBƏCƏR: 27 illik qış ömrünə 44 gündə bahar gələn qədim yurd




8


SƏS
№ 056 (6739)
4 aprel 2023-cü il.
Qiymәti 60 qәpik


# Azərbaycan-Türkiyə: dostluq və qardaşlığımız əbədidir!



2

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib

# Zəfərimizin başlanğıcı: APREL DÖYÜŞLƏRİ!



3

## "Prezidentin bu addımı medianın inkişafına dəyərli töhfədir"



5

## Formula 1 təqvimində Azərbaycan Qran Pri yarışı



10

## Terror izi yenə İrana aparır...



13



15

## Mətbuatın vergidən azad edilməsi nəyi dəyişəcək?

## Anomal hava şəraiti kənd təsərrüfatı bitkilərinə necə təsir etdi?



4

# Azərbaycan-Türkiyə: dostluq və qardaşlığımız əbədidir!

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib



***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin ”Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib. Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdıraraq Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərilən qardaşlıq yardımına görə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidentinə minnətdarlığını bir daha ifadə edib.***

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib. Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlara bir daha Allahdan rəhmət diləyərək, Azərbaycanın Türkiyəyə yardımını qardaşlıq borcu kimi dəyərləndirib.

Azərbaycan Prezidenti bu yaxınlarda Ankarada Türkiyə Prezidenti ilə görüşünü və Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq, Türkiyə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Prezident İlham Əliyev Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək, bu xüsusda ”Baykar” şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğulayıb və bu şirkətin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd edib.



Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün digər sahələrdə olduğu kimi hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olunub.

# Strateji tərəfdaşlığa yüksələn münasibətlər: Azərbaycan-İtaliya

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan-İtaliya münasibətləri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir"

Azərbaycan istər 2020-ci il sentyabrın 27-nə kimi, istərsə də 27 sentyabrdan bu günə kimi regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Bu, Azərbaycan Prezidenti Iham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Məhz bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir.

Belə ki, aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellini qəbul edərkən bildirib ki, Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq müstəvisində inkişaf edir: ”Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq müstəvisində inkişaf edir, əlaqələrimizin böyük hissəsi energetika sahəsi ilə bağlıdır”.

Dövlətimizin başçısı qeyd edib ki, hazırda Avropanın enerji təhlükəsizliyi istiqamətində atılan addımlar Azərbaycan-İtaliya əməkdaşlığını daha da gücləndirir. Eyni zamanda, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Ticarət dövriyyəsinin əsas hissəsinin Azərbaycanın neftqaz ixracından ibarət olduğunu deyən Prezident İlham Əliyev əməkdaşlığın strukturunun genişləndirilməsi ilə bağlı əlavə addımların atılmasının zəruriliyini vurğulayıb.

### AZƏRBAYCAN-İTALİYA NÜMUNƏSİ: YAXŞI DOST DAR GÜNDƏ TANINAR

İtaliya Azərbaycanın müstəqilliyini 1 yanvar 1992-ci ildə tanıyıb. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin may ayının 8-də qurulub. 1997-ci ilin mart ayında İtaliyanın Azərbaycanda, 2003-cü ilin dekabr ayında isə Azərbaycanın İtaliyada səfirliyi təsis edilib. İtaliya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsi ilə həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun tərkibinə daxildir. Avropa İttifaqının əsas üzvlərindən olan İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb. Bildiyiniz kimi artıq Cənub Qaz Dəhlizi istifadəyə verilib. TAP-la nəql olunan qazın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük əhəmiyyəti var.



Azərbaycana yaxın dost olan İtaliya işğal altındakı torpaqlarımızın azad olunması əməliyyatları dövründə müxtəlif səviyyələrdə rəsmi Bakının mövqeyini dəstəklədiyini, Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu bəyan edərək haqlının tərəfində dayandığını dünyaya nümayiş etdirdi. Həmçinin, Azərbaycan xalqı 44 günlük Vətən savaşında İtaliya mediasının haqq işimizə, Qarabağ müharibəsinə obyektiv yanaşmasının şahidi oldu.

Prezident İlham Əliyev hər zaman çıxışlarında işğaldan azad olunmuş ərazilərimizin bərpasında Azərbaycanın dost ölkələri təmsil edən şirkətlərlə əməkdaşlıq edəcəyini bəyan edib. İtaliya da Azərbaycana dost ölkələrdəndir və strateji tərəfdaşımızdır. Ölkələrimiz arasında bütün istiqamətlər üzrə səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Təsadüfi deyil ki, 2020-ci il İtaliyada Azərbaycan ili kimi qeyd olundu. Azərbaycan və İtaliya arasında dostluq münasibətləri 44 günlük Vətən müharibəsi dövründə də rəsmi Roma tərəfindən açıq şəkildə bəyan olundu. İtaliyanın ayrı-ayrı rəsmi orqanlarında müxtəlif səviyyələrdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul olundu. Hərbi əməliyyatlar dövründə həmrəylik və dəstək mövqeyi İtaliya mətbuatında daha intensiv xarakter almışdı. Bir sözlə, hər zaman münaqişənin həlli ilə bağlı ədalətli mövqe sərgiləyən İtaliyanın Vətən müharibəsi dövründə nümayiş etdirdiyi mövqe bir çox ölkələr üçün əsl örnək idi.

Həmçinin, ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın gələcək inkişafı üçün geniş potensial var. Xüsusilə, İtaliya şirkətlərinin qeyri-neft sektorunda fəallığı hər iki ölkənin maraqlarına tam cavab verir. Bu günə qədər də bir çox İtaliya şirkətləri Azərbaycanda müxtəlif layihələrdə iştirak ediblər. Ticarət dövriyyəsi üzrə də İtaliya Azərbaycan üçün dünya miqyasında bir nömrəli tərəfdaşdır və ticarət dövriyyəsinin şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Təsadüfi deyil ki, hələ 2018-ci il iyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa edilən polipropilen zavodunun açılışında ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella şəxsən iştirak etmişdi. Bu, İtaliyanın bu sahədə Azərbaycanla əməkdaşlığa ən yüksək səviyyədə verdiyi önəmin göstəricisi idi.

### BU GÜN ÇOX MÜHÜM HADİSƏ - İTALİYA-AZƏRBAYCAN UNİVERSİTETİNİN TƏMƏLQOYMA MƏRASİMİ OLACAQDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirmişdir ki, ölkələrimiz arasında çox güclü siyasi əlaqələr tərəfdaşlığımızın güclü təməlini təşkil edir: ”2014-cü və 2020-ci illərdə biz strateji tərəfdaşlıq üzrə iki mühüm bəyannamə imzaladıq. Bu da yaxın dost olmaq üçün qarşılıqlı iradənin mövcud olduğunu göstərir və biz artıq yaxın dostuq”.

Prezident İlham Əliyev onu da bildirmişdir ki, Azərbaycan və İtaliya arasında humanitar sahədə bir sıra layihələrin planlaşdırılmasına nümunə olan Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi olmaqla, həm də İtaliya ilə Azərbaycan arasında dostluğun yaxşı göstəricisi olacaq universitet sənaye sahələrini idarə edə bilən, iqtisadiyyatın gələcək üçün tələb etdiyi ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmli rol oynayacaq: ”Əminəm ki, bu, Azərbaycanda ən yaxşı universitetlərdən biri olacaqdır və beş italyan universiteti bu layihənin tərəfdaşı qismində çıxış edir. Həmçinin italyan şirkətlərinin azad edilmiş ərazilərin bərpa-quruculuq işlərində fəal iştirakı bizi sevindirir. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da İtaliya şirkətləri tərəfindən həyata keçirilir. Elektrik enerjisi sektorunda işlər gedir. Beləliklə, qeyd etdiyim kimi, gündəlik genişdir və genişlənir. Mən çox şadam ki, bu, bizim əməkdaşlığımızın yaxşı nəticəsidir”.

Qeyd edək ki, Prezident İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı söyləyib ki, biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq: ”Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb...Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik. Azərbaycan artıq sabit siyasi mövqeyə malikdir, həmçinin iqtisadiyyatımız da sabitdir. Biz müstəqil olmaq üçün iqtisadi anlamda yatırımlar etmişik. Yoxsa biz özümüzü asılı hiss edərdik. Azərbaycan imperiyaların hissəsi olub, biz Sovet İttifaqının bir parçası olmuşuq. Artıq 30 ildir ki, bizim insanlarımız müstəqildir və biz əbədi olaraq müstəqil yaşamaq istəyirik. Bunun üçün biz güclü olmalıyıq. Bizim yaxşı dostlarımız olmalıdır”.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi, İtaliya da Azərbaycana dost ölkələrdəndir və strateji tərəfdaşımızdır. Bu isə, Azərbaycanın beynəlxalq aləmdə etibarlı və strateji partnyor kimi tanınmasını nümayiş etdirməklə, iki dövlət arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmin yaradacaq.

***RƏFİQƏ KAMALQIZI***

# Zəfərimizin başlanğıcı: APREL DÖYÜŞLƏRİ!



Bayrağımızı yüksəkliklərdən-yüksəkliklərə qaldıran siyasi gücə, iradəyə malik Böyük Liderimiz, Sərkərdəmiz və Prezidentimiz var. Bu güc, bu Sərkərdəlik Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı, ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Tariximizi yazmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq. 30 ilə yaxın işğal dövründə Azərbaycan hər zaman bu qisası almağa, ucadan-uca üçrəngli Azərbaycan bayrağını vətən torpağı üzərində məğrur-məğrur dalğalanacağı günün lap yaxında olduğunu yaxşı bilirdi. Vətən torpağına axıdılan şəhid qanının, qoca, qadın və uşaqların qışın sərt sızağında, yayın istisində el-obasından didərgin düşməsinin qisasının alınacağı günü səbirsizliklə gözləyirdi igid oğullarımız. Müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvolu olan Bayrağımızı o yerlərdə dalğalandırmağa hər kəs tələsirdi. Torpağın ətrini duymağa, ədadlarının qəbrini ziyarət etməyə, bağında boy atan meyvələrin nübarını dadmağa, çox şeyə tələsirdi hamı. Zaman yetişdi.



## TƏXRİBATLARIN QARŞISI ALINDI

Azərbaycan ordusu hələ Aprel döyüşlərində öz gücünü düşmənə göstərə bilmişdir. 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, aprel döyüşləri kimi tarixləşdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş hərbi münaqişə Aprel döyüşləri Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.

5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalandı. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən seperatçı qüvvələr atəşkəs imzalanmazdan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2,000 hektarlıq ərazini azad etmişdir. Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş tutmadı. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

## ÖLKƏMİZ ÜÇÜN TARİXİ GÜN

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz ordu" mifini darmadağın etdi. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni gün oldu. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müraciət xalqın tarixində yeni bir günün başlanması demək idi. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının arzuladığı, torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə danışmış olacaq. Azərbaycan ordusu Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu göstərdi.

## "QİSAS" CAVAB ƏMƏLİYYATI

Əlbəttə ki, buna qədər qeyd etdiymiz kimi, Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir. "2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik"- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir: "Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsini nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı". 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.

Amma, deyəsən, "dəmir yumruğ"un gücünü görmüş ermənilər unutqanlıq edirdilər. Yaxın keçmişimizdə aldığı zərbələri yaddan çıxarmışdılar. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarını kobud surətdə pozaraq ötən ilin avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdilər. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürdü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı..

Bu gün vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayanır. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgsini bir daha göstərmiş oldu. Öz iradəsi, gücü ilə. Bu gün də vətən oğulları Ali Baş Komandanın əmrinə, vətənin müdafiəsinə hər an hazırdırlar. Bu gün Azərbaycan qalib dövlətdir. Torpaqlarını işğaldan azad edilən qalib xalqdır.



Bu gün hər bir azərbaycanlı Lələtəpədə ucaldılan üçrəngli bayrağımızın artıq işğaldan azad edilən Şuşada və digər ərazilərimizdə dalğalanmasından qürur duyurlar. Bu qüruru bizə yaşadan Müzəffər Ali Baş Komandan və Rəşadətli Azərbaycan Ordusudur.



***Zümrüd BAYRAMOVA***

# Anomal hava şəraiti kənd təsərrüfatı bitkilərinə necə təsir etdi?

***Ölkəmizdə artıq aprel ayı olduğuna baxmayaraq anomal hava şəraiti hökm sürür. Belə ki, hava bir gün günəşli səhəri gün isə boran olur. Yağıntılar əkin-biçinə müsbət təsir etsə də, havanın qəfil dəyişməsi günlük həyatımızla yanaşı torpağa və kənd təsərrüfatı məhsullarına ciddi ziyan vurur. İqlim dəyişikliyinin yaratdığı fəlakətlər dünyanın hər yerindən gəlir. Mütəxəssislər bu təhlükənin Covid-19-dan daha böyük və təhlükəli olduğunu vurğulayırlar.***



Tez-tez və sürətlə dəyişən havanın temperaturu, bir həftədə yayı, bir həftədə qışı xatırladır. Bəs, belə anomal hava şəraitindən torpaq və kənd təsərrüfatı məhsulları necə təsirlənir?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Tokat Gaziosmanpaşa Universiteti Fən və Ədəbiyyat Fakültəsi Coğrafiya Bölümündən professor Hakan Mete Doğan deyir ki, ani temperatur dəyişiklikləri, xüsusilə temperaturun ani enişləri bitkilərin inkişafına və məhsuldarlığına ciddi dərəcədə mənfi təsir göstərir. Bunlardan bəziləri: Meyvələrdə çatlama və fizioloji quraqlığa, kök inkişafının dayanmasına, tumurcuq toxumalarının qurumasına və ölməsinə, məhsul yığım vaxtının pozulmasına və keyfiyyətin itməsinə səbəb olur. Həmçinin, qəfil quraqlıq dövrlər və ya şiddətli qısamüddətli yağışlar da məhsulun tamamilə məhvinə səbəb ola bilər.

İqlim dəyişikliyi onilliklər və ya daha uzun müddət ərzində hava şəraitinin, okeanların, quru səthlərinin və buz təbəqələrinin dəyişməsidir.

Qlobal istiləşmə birbaşa və ya dolayı yolla aşağı və yüksək təzyiqli ərazilərə təsir edərək yerli səviyyədə qəfil hava dəyişikliklərinə səbəb olur. Beləliklə, dünyanın müxtəlif yerlərində qəfil güclü küləklər, qısamüddətli güclü yağışlar, həddindən artıq isti və quraq dövrlər tədricən adi hala çevrilir. İqlim dəyişikliyinin ən mühüm göstəriciləri gündüz normal aylıq və illik temperatur dəyişiklikləri, gecə ilə gündüz arasındakı fərqlərin həddindən artıq və qəfil dəyişməsi ilə əlaqədardır. Bu dəyişikliklər bölgənin coğrafi, topoqrafik və ekoloji xüsusiyyətlərindən asılı olaraq artır və ya azalır.

## Bu qəfil hava dəyişimi torpağa necə təsir edir?

Torpaq yaşayan və əsasən canlılardan ibarət üzvi quruluşdur. Bu üzvi quruluşun əsas dövrlərini canlılar (göbələklər, bakteriyalar, həşəratlar, qurdlar və s.) təşkil edir. Temperaturun kəskin və qəfil dəyişməsi ilk növbədə torpağın bioloji quruluşunu pozur və kimyəvi quruluşu dəyişir. Bu, torpağın münbitliyinə mənfi təsir edir və eroziyaya səbəb olur. Torpağın temperaturunun qəfil dəyişməsi torpağın su balansına,



azotun çevrilməsinə və termofiziki xassələrinə, həmçinin torpaqda mikroorqanizmlərin fəaliyyətinə və müvafiq olaraq üzvi maddələrin minerallaşmasına təsir göstərir.

## Bəs, anomal hava şəraiti kənd təsərrüfatı məhsullarına necə təsir edir?

Canlıların başda istilik və rütubətə üzrə müxtəlif ekoloji parametrlərə dözümlülüyü məhduddur. Bu həddi aşdıqda stresə düşürlər, stress halları davam edərsə xəstələnirlər, böyümə və reproduktiv qabiliyyətləri azalır və ya ölürlər. Qəfil hava dəyişiklikləri kənd təsərrüfatında əkin və məhsul yığım müddətində yerdəyişmələrə (dəyişikliklərə) səbəb olur. Bu, həmçinin əkin-biçin vaxtının gecikməsinə və məhsuldarlığın azalmasına gətirib çıxarır. Əkin olunan kənd təsərrüfatı torpaqlarında bitki çıxmasına (cücərməsinə) mənfi təsir göstərir. Bitki köklərinin inkişafını dayandırır və bitkilərdə qida çatışmazlığı ilə quruması səbəb olur.

Daşqınlar nəticəsində torpağın aerasiyası və şoranlaşması kimi bəzi arzuolunmaz nəticələr yarana bilər və nəticədə bu bitkilərə mənfi təsir göstərir. Bir gün günəş, ertəsi gün leysan yağışları da bitkilərdə xəstəlik və zərərvericilərin çoxalmasına səbəb olur. Yüksək temperatur bitkilərin stress, vaxtından əvvəl yetişmə və müvafiq olaraq məhsuldarlığın azalması səbəbindən sürətli inkişaf dövrünə girməsinə səbəb olur.

Digər tərəfdən temperaturun qəfil dəyişməsi, xüsusilə temperaturun qəfil azalması bitkilərin inkişafına və məhsuldarlığına əhəmiyyətli dərəcədə mənfi təsir göstərir.

## Temperaturun qəfil dəyişməsinin



## torpağa və əkinçiliyə zərər verməməsi üçün nə etmək lazımdır?

- Temperatur və digər quraqlıq şəraitinə dözümlü olan növlərə və sortlara diqqət yetirmək lazımdır.
- Vacib bioloji ehtiyatlar və əkinçilik əraziləri qorunmalıdır.
- Meşələr, bataqlıqlar, su ekosistemləri bərpa edilməli və qorunmalıdır.
- Əvvəlcə mühüm mikroiqlim bölgələri qorunmalıdır.
- Çayların yeraltı və yerüstü bənd sistemləri və dolama qurğuları mühafizə edilməlidir.
- Ekoloji cəhətdən təmiz istehsala diqqət yetirilməlidir.

Kənd təsərrüfatına təsir edən təbii amillər:
- İstilik - iqlim dəyişiklikləri.
- Torpaq formaları - torpağın xüsusiyyətləri
- Don - rütubət
- Yağış - külək
- Suvarma- toxumçuluq
- Mexanikləşdirmə- gübrələmə
- Dərman- torpaq analizi.
- Marketinq- ixrac.

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinq şöbəsinin müdiri İmran Cümşüdov: "Son günlər respublika ərazisində yağmurlu və qarlı hava şəraiti hökm sürür. Qar bərəkətdir. Bu çox yaxşı bir haldır.

Ümumiyyətlə kənd təəsrrüfatı təbiətdən asılı olan bir sahədir. Hava şəraitinin dəyişməsi bu və ya digər formada kənd təsərrüfatına öz təsirini göstərir. Amma bütövlükdə biz nəzərə alsaq, yəni bitkiləri strateji baxımdan qiymətləndirsək, ərzaq təhlükəsizliyi baxımından ən strateji sahəmiz taxılçılıqdır. Respublika ərazisində 1 milyon hektardan artıq sadə taxıl əkini aparılıb. Bunun da yarısından çoxu dəmyə bölgələrində əkilib. Orada suvarma həyata keçirilmir və bu payızdan əkilən taxıl yağmurlar az olduğu üçün ciddi nəmlik çatışmazlığı sıxıntısı yaşadı. Yağan qar və yağmur həqiqətən də əsasən dəmyə əkinçiliyə çox müsbət təsir göstərdi. Həmçinin bu taxıllara yaz qulluq işləri aparılır və yemləmə gübrəsi verilir. Bu gübrənin verilməsi məhsuldarlığın artırılması üçündür. Nəmlik olmayanda bu gübrələrdən bitkilər yararlana bilmir.

Qar və yağmur torpaqda ilk öncə nəmlik ehtiyatı yaradır. Daha sonra qarın yağması torpaqda zərərverici və gəmiricilərin məhv olmasına səbəb olur, çaylarda suyun səviyyəsini artırır ki, bu da suvarma üçün çox yaxşıdır.

Meyvəçiliklə məşğul olan rayonlardan Quba, Xaçmaz, Şəki, Zaqatala bölgəsində qar yağsa da şaxtalı hava şəraiti olmadı. Hava mülayim keçdi. Ona görə də bu yağan qar hətta çiçək açmış ağaclara belə mənfi təsir göstərmədi. Mayalanmada cüzi çətinlik ola bilər. Amma bütövlükdə bu hava davamlı olsaydı, çiçəklər və tumrucuqlar məhv olardı. Biz mütəmadi olaraq məlumat alırıq və belə bir sıxıntı ilə qarşılaşan fermerlərimiz olmayıb. Bu həftə ərzində də bizim mütəxəssislər bölgələrə ezam olunaraq real vəziyyət haqqında məlumat verəcəklər.

Fermerlər üçün faydalı məsləhətlərimiz var. İlk növbədə payızdan aparılan budama işləri normal qaydada getməlidir.



Çünki aprel ayında ölkəmizdə həmişə yaz şaxtalı havası gözlənilir. Ona görə də fermerlərimiz əkin aparanda quraqlığa və şaxtaya davamlı sortlara üstünlük verməlidir.

Eyni zamanda kalium tərkibli gübrələrdən istifadə etmələri çox vacibdir. Çünki bu bitkidə şəkərin miqdarını artırır. Şəkər varsa, deməli şaxtaya qarşı mübarizə də var.

Yazlıq bitkilərin də əkiminə önəm verilməlidir. Buna artıq başlanılıb. Belə ki, şəkər çuğunduru əkininə başlanılıb. Birazdan pambıq, tütün, qarğıdalı əkini də olacaq. Bunlar üçün də yağan yağmur çox faydalı oldu. Həmçinin yağmur, yem bitkilərinin və heyvandarlığın inkişafı üçün çox faydalı oldu".

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdir müavini Fərman Kərimov: "Məlum olduğu üzrə, 3-4 gündür ki, hava qeyri-stabil dəyişir. Bunun nəticəsində yağmurun normadan artıq düşməsi kənd təsərrüfatı bitkilərinə, əsasən də taxıl əkinlərinə çox yaxşı təsir göstərir. Bu dağlıq və dağətəyi ərazilərdə əkilmiş taxıllara can verir. Taxıllar tamamilə qurumaq üzərə idi və gübrədən də istifadə etmək mümkün olmurdu. Bunlar iqlimlə bağlıdır.

İndi yağmurların belə intensiv düşməsi nəticəsində bitkilərin inkişafı sürətlənib. Amma həmin ərəfədə bəzi çəyirdəkli bitkilər çiçək açmışdılar. Temperaturun birdən-birə aşağı düşməsi və yağmurun yağması mayalanma prosesinə mənfi təsir göstərə bilər. Əgər çəyirdəkli bitkilərin mayalanma prosesi başa çatmışdısa, bunun onlara mənfi təsiri az olacaq. Belə havanın tərəvəz bitkilərinə mənfi təsiri yoxdur. Yəni, tərəvəz bitkiləri yağmurların düşməsi ilə inkişafını davam etdirəcək. Həmçinin, çiçək açma ərəfəsində olan ağaclara da mənfi təsiri olmayacaq".

***Ayşən Vəli***

# Hərbi üstünlüyümüzü təsdiqləyən tarixi qələbələr

*İLHAM ƏLİYEV: "Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, Mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur"*



**"Ulu Öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başlamışdır və illər keçdikcə ordumuz öz gücünü artırmışdır". Bunu Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində şəxsi heyət qarşısında çıxışı zamanı deyib.**

"Bunu biz işğal dövründə müxtəlif zamanlarda görmüşük, o cümlədən Aprel döyüşlərində. Aprel döyüşləri işğalçılar üçün bir mesaj, bir siqnal idi ki, işğala son qoyun, torpaqlarımızdan çıxın, rədd olun. Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər. Bizi yeni müharibə ilə hədələyən düşmən İkinci Qarabağ müharibəsində öz dərsini aldı. "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir".

## "MƏN PREZİDENT KİMİ ÖZ SƏLAHİYYƏTLƏRİMİ İCRA ETMƏYƏ BAŞLAYAN ZAMAN DEMİŞDİM Kİ, MƏNİM ÜÇÜN PREZİDENT VƏ ALİ BAŞ KOMANDAN KİMİ BİRİNCİ VƏZİFƏ ORDU QURUCULUĞUDUR"

Azərbaycan Prezidenti İlham Əliyev onu da vurğulayıb ki, bütün bu qələbələr, məhz ordumuzun gücü ilə əldə etdik: "Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq".

Dövlət başçısı söyləyib ki, Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayandan birinci vəzifə ordu quruculuğunu gücləndirmək olub: "Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur. Çünki torpaqlarımız işğal altındadır, danışıqlara ümidlərimiz tükənib və güc yolu ilə biz bu məsələni həll etməliyik. Bunu illər boyu bəyan edirdim, çalışırdım Ermənistan rəhbərliyi, nəhayət anlasın ki, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi, Azərbaycan Ordusu bu işğalla heç vaxt barışmayacaq. Bunu rəsmən bəyan edirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmənin əlindən alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Belə də oldu".

Bəli, həmişə olduğu kimi, 44 gün davam edən İkinci Vətən müharibəsində də bir yumruq kimi birləşdik və düşmənə elə sarsıdıcı zərbələr endirdik ki, bu günə qədər də özünə gələ bilmir: "Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycan xalqı öz ordusuna dayaq və arxa oldu, bütün Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları birləşdi. Bir yumruq kimi birləşdik və düşmənə elə sarsıdıcı zərbələr endirdik ki, o günə qədər də özünə gələ bilmir".

Və olmayan ordudan danışan Ermənistanı diz çökdürdük və onların qalıqları artıq Bakının küçələrində - Hərbi Qənimətlər Parkındadır: "Ermənistan ordusu 44 gün ərzində tamamilə məhv edilmişdir. Ermənistan ordusunun qalıqları bu gün Bakının mərkəzində, Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Vaxtilə Ermənistan rəhbərliyi bizi yeni müharibə ilə hədələyirdi. Deyirdilər ki, əgər Azərbaycan hərbi yolla bu məsələni həll etmək istəsə, erməni tankları Bakının küçələrində olacaq. Bəli, erməni tankları Bakının küçələrində oldu, biz onları məhv edilmiş vəziyyətdə gətirdik. İndi o tanklar, digər toplar və texnika Hərbi Qənimətlər Parkında nümayiş etdirilir".

## "BİZ GÜCLÜ ORDU YARATMIŞIQ, BUNDAN SONRA DA BU İSTİQAMƏTDƏ İŞLƏR APARILACAQ"

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev çıxışında bildirib ki, ulu öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başladı və illər keçdikcə ordumuz öz gücünü artırdı: "Bunu biz işğal dövründə müxtəlif zamanlarda, o cümlədən Aprel döyüşlərində görmüşük".

Aprel döyüşlərinin işğalçılar üçün bir mesaj, bir siqnal olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər. Bizi yeni müharibə ilə hədələyən düşmən İkinci Qarabağ müharibəsində öz dərsini aldı. "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir. Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq".

Mübaliğəsiz demək olar ki, 23 il öncə, 1999-cu ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən olan Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti 2016-cı ilin Aprel döyüşlərində, eləcə də 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də böyük şücaət göstəriblər. Torpaqlarımızın düşmən tapdağından azad edilməsində XTQ-nin misilsiz xidmətləri olub. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinə düşdü.

Ordumuzu qələbəyə aparan amillərdən danışan dövlətimizin başçısı deyib: ki, biz cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi düşmənin əlindən aldıq, döyüş meydanında bu Zəfəri qazandıq, danışıqlar yolu ilə yox, kiminsə güzəşti ilə yox, qan tökərək, şəhidlər verərək: "Bizi irəliyə nə aparırdı? Vətən sevgisi, Vətənə sevgi, düşmənə nifrət! Bax, biz gənc nəsli bu əhval-ruhiyyədə yetişdirmişik, bu əhval-ruhiyyədə bizim ordumuz yetişib və ordumuzun ən döyüşkən birləşməsi olan xüsusi təyinatlılar bu amalla, bu ideya ilə irəliyə gedirdi, öz sinəsini qabağa verirdi".

## "ERMƏNİSTANIN KAPİTULYASİYA AKTINA İMZA ATMAQ MƏNİM HƏYATIMDA ƏN QÜRURLU HADİSƏDİR"

"Azərbaycan Silahlı Qüvvələrinin tarixi Zəfəri bizim tariximizdə əbədi qalacaq. Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq",-deyən Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev qeyd edib ki, bu sevinci bizə bəxş edən bizim övladlarımız, əsgər və zabitlərimiz olub. Bütün Silahlı Qüvvələr bu Qələbənin əldə olunmasında öz dəyərli töhfəsini verdi və cəmi 44 gün ərzində tarixi Zəfər əldə olundu, düşmən bizim qabağımızda diz çökdü və məcbur oldu öz əli ilə kapitulyasiya aktına imza atdı: "Bu, tariximizin və mənim həyatımda bəlkə də ən yaddaqalan, ən sevincli, ən qürurlu anlardan biridir, bəlkə də birincisidir. Ermənistanın kapitulyasiya aktına imza atmaq mənim həyatımda ən qürurlu hadisədir".

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə üksəklik azad olundu. Bütün bu uğurlar Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, prinsipial mövqeyi və Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə əldə olundu.

Beləliklə, bizim torpaqlarımızın işğalı əfsuslar olsun ki, reallığa çevrilmişdi və Ermənistan da, ona havadarlıq edən dairələr də bilir ki, bu gün nə qədər revanşdan danışsalar da müharibə dövründə fərarilik edən erməni toplumu ilə Azərbaycanın yaratdığı reallığa qarşı gəlmək mümkün deyil.

**RƏFİQƏ HÜSEYNOVA**

# "Prezidentin bu addımı medianın inkişafına dəyərli töhfədir"

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiq edib. Beləliklə, media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq maddi yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsinin isə əlavə dəyər vergisindən 3 il müddətinə azad olunur". SİA xəbər verir ki, məsələ ilə bağlı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, bu qərar cənab İlham Əliyevin ölkə mediasına göstərdiyi diqqətin bariz nümunəsidir.



"İlk növbədə qeyd etməliyik ki, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, dövlət büdcəsindən, o cümlədən digər mənbələrdən maliyyələşdirilməl追ərinin azaldılması və müstəqil fəaliyyətlərinin təmin edilməsi məqsədilə reklam bazarının həcminin artırılması zəruridir. Dövlətin medianın inkişafına dəstək strategiyasından bu sahəilə bağlı ayrı-ayrı vaxtlarda ƏDV-dən azad etmə təcrübəsi olmuşdur və bu, medianın iqtisadi vəziyyətinin yaxşılaşmasına öz müsbət təsirini göstərmişdir",- deyə Əhməd İsmayılov bildirib.

İcraçı direktor vurğulayıb ki, Azərbaycan mediasının iqtisadi dayanıqlığının gücləndirilməsi, müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı dövlət siyasətinin prioritetini təşkil edir.

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiq etməsi mediamızın iqtisadi müstəqilliyinin gücləndirilməsinə dəyərli töhfədir. Ölkəmizin media ictimaiyyəti adından diqqət və qayğısına görə dövlətimizin başçısına dərin minnətdarlığımızı bildiririk", - deyə Əhməd İsmayılov bildirib,

# XİN: Vətən müharibəsindən sonra 288 nəfər minaya düşüb, 50-si həyatını itirib

Ermənistanın yerləşdirdiyi minalar azərbaycanlıları öldürməkdə və şikəst etməkdə davam edir. Bu sözlər Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) tviter səhifəsindəki paylaşımda yer alıb. "Bu gün Azərbaycanın daha bir hərbi qulluqçusu mina partlaması nəticəsində həlak olub. 2020-ci il müharibəsinin sonundan bəri 288 azərbaycanlı minaya düşüb, onlardan 50-si həyatını itirib. Beynəlxalq ictimaiyyət Ermənistanın yaratdığı mina təhlükəsindən narahatlığını ifadə etməlidir", -deyə paylaşımda qeyd olunur.



# Dövlətçilik tariximizin, ənənələrimizin, elm və mədəniyyətimizin təbliği aktual məsələdir




***Azərbaycan xalqının dövlətçilik tarixi çox qədim zamanlardan başlayır və dünyanın ən qədim dövlətçilik ənənələrinə sahib olan xalqımızın bu ənənəsinin təbliği proiritet məsələ hesab olunur. Mədəniyyətimizin, adət-ənənələrimizin, elm və təhsilimizin, ədəbiyyatımızın tərəqqisinə səbəb olan dövlətçilik tariximizin beş min ildən də çox tarixi var ki, bu, bizi, xalqımızı tanıtmaq üçün, yüksək mənəvi dəyərlər sisteminə malik olmağımızı təbliğ etmək üçün yetərlidir.***

Milli adət və ənənələr və onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin, xalqın mənəvi, mədəni siması deməkdir. Öz adət-ənənələri, yüksək mənəvi dəyərləri ilə xalqımız dünya xalqları içərisində hər zaman sayılıb-seçilib və bu baxımdan da diqqət mərkəzindədir. Azərbaycan xalqının bu dəyərlərinə hər zaman hörmətlə yanaşılıb, çünki özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verib və yenə də töhvələr verməkdədir. Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu isbatlayan özünəməxsus adət və ənənələri onun keçmişi ilə bu günü, eləcə də gələcəyi arasında sarsılmaz bir mənəvi bağlılığı əks etdirir. "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir", deyən Ulu Öndər Heydər Əliyev adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolu hər zaman yüksək qiymətləndirib.

Güclü dövlətçilik qurucuhluğu ilə adət-ənənələr, eləcə də həmin adət-ənənələrin formalaşdırdığı milli dəyərlər sistemi arasında qırılmaz bağlılıq, vəhdət danılmazdır. Çünki əxlaqi, milli vətənəpərvərlik baxımından cəmiyyəti düzgün istiqamətə yönəldən ilk növbədə, adət və ənənələrdir və hər bir dövlətin gücü də məhz həmin dəyərlərin cəmiyyəti saf təməllər üzərində tərbiyə etməsindən birbaşa asılıdır. Öz lideri ətrafında möhkəm birləşən güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli rol oynayan məhz adət-ənənələrdir, hansı ki, insan münasibətlərinin tənzimləyici və istiqamətverici funksiyasını yerinə yetirir. Gənc nəslin saf əxlaqi ruhda tərbiyələndirilməsinin dövlətimiz qarşısında ən zəruri vəzifələrdən biri olduğunu dönə-dönə vurğulayan Ümummilli Lider Heydər Əliyev mənsub olduğu xalqın, Azərbaycan xalqının tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə hər zaman qayğı ilə yanaşıb. Çünki görkəmli dövlət xadimi çox yaxşı bilirdi ki, adət-ənənələr yetişməkdə olan gənc nəsildə güclü təsirə malik iz buraxaraq, gənclərin vətən, millət, xalq sevgisi ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Heç şübhəsiz ki, həmin o adət-ənənələr mənəvi baxımdan nə qədər zəngin olarsa, həmin gənclər də o qədər cəmiyyət üçün xeyirli şəxs kimi yetişər, dövlətin daha da güclü olmasına öz töhfəsini verər və biz bunun artıq əyani şahidləriyik.

Sözsüz ki, qeyd olunan məqamlar orta və ali məktəblərdə, ümumiyyətlə, bütün təhsil ocaqlarında da nəzərə alınmalıdır və məhz dövlətçilik tariximiz, milli adət-ənənələrimiz, elm və mədəniyyətimiz gənc nəslə tədris edilməli, öyrədilməli, onlar məlumatlandırılmalı, bilikləndirilməlidirlər. Bu bilik, məlumatlılıq da öz növbəsində bizə məxsus olan dəyərlərin, qədim tarixə malik olan dövlətçilik ənənələrimizin, elm və mədəniyyətimizin, adət-ənənələrimizin təbliğinə əsaslı zəmin yaradır. Eyni zamanda vətəndaşlar özləri, öz ailələrində belə, öz övladları ilə dövlətçilik tariximiz, adət-ənənələrimiz, elm və mədəniyyətimiz barədə söhbərlər aparmalı, bu ali dəyərləri təbliğ etməlidirlər. Belə bir cəmiyyət də, bu cəmiyyətin təmsil olunduğu dövlət də sarsılmaz olur. Bu baxımdan da dövlətçilik tariximizin, adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliğinin hər zaman aktual olduğu təkzib edilə bilməz.

Azərbaycan cəmi 44 gün ərzində öz gücü, öz qüdrəti hesabına işğal altında 30 ilə yaxın müddətdə saxlanılan torpaqları işğaldan azad etdi, mükəmməl qələbəyə, Zəfərə imza atdı. Çoxlu sayda könüllü bu yolda vətəndaşlıq borcunu hiss etdiyini təsdiq etdi. İstər şəhidlərimiz, istərsə də qazilərimiz təsdiq etdilər ki, bizə məxsus olan ali dəyərlərə cəmiyyətimiz nə qədər böyük önəm verir. Başda elə Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, müdrikliyi, eləcə də xalqımızın həmrəyliyi, birliyi və ordumuzun, Azərbaycan Ordusunun şücaəti, rəşadəti ilə işğal altında olan torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpa olunması hər qarış torpağımıza, bizə məxsus olanlara, milli maraqlarımıza verilən önəmin, dəyərin təzahürü, isbatı sayılır. Azərbaycan cəmiyyəti öz ali dəyərlərinə, torpaqlarına, dövlətçilik ənənələrinə, ümumiyyətlə, maddi və mənəvi irsinə hörmətlə yanaşdığı üçün 30 il müddətində işğal faktı ilə barışmadı və nəticədə onlara sahib çıxdı. Şuşa kimi, ölkəmizin mədəniyyət paytaxtının, milli adət-ənənələrimizi özündə əks etdirən mədəniyyət ocağının düşmən tapdağından xilas edilməsi xalqımızın öz milli və mənəvi dəyərlərinə verdiyi önəmin təcəssümü kimi qiymətləndirilir. Bütün bunlar isə Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği sayəsində oldu və görünən odur ki, dövlətimiz bu istiqamətdə doğru, düzgün iş aparıb və dövlətçilik tariximizin, milli adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliğinə xüsusi diqqət ayırıb, qayğı ilə yanaşıb.

Bilirik ki, tarix boyu ermənilər bizə məxsus olanlara sahib çıxmağa çalışıblar və istər torpaqlarımız olsun, istər milli adət-ənənələrimiz olsun, istərsə də elm və mədəniyyətimizi öz adlarına çıxmaq, mənimsəmək üçün hər zaman dəridən-qabıqdan çıxıblar. Bizə məxsus olan ərazilərdə ermənilər tərəfindən tarixi abidələrin saxtalaşdırılması, mədəniyyət abidələrimizin məhv edilməsi, yaşı çox olan qəbirlərin belə dağıdılması məhz həmin məqsəd daşıyıb. Haylar hər zaman Azərbaycan xalqının çox qədim olan dövlətçilik tarixini, onun nəsildən-nəsilə ötürülərək bu dövrə qədər gəlib çatan ənənələrini, milli dəyərlərini yox etməyə çalışıblar ki, bunları ya özününküləşdirsinlər, ya da özlərinə məxsus miflər yaratsınlar. Onsuz da bu gün Ermənistan dövləti adlandırılan ərazilər Azərbaycan xalqına məxsus tarixi torpaqlardır və hayların həmin ərazilərlə kifayətlənmək istəmədikləri, yenə də bizə məxsus olan ərazilərə ələ keçirmək niyyətləri göz önündədir. Bir sözlə, hələ də bizə məxsus olanın mənimsənilməsi istiqamətində haylar əldən-ayaqdan gedir, bütün hiylələrə əl atır, məkrli planlar qurmaqdadırlar. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği hər zaman aktual məsələ hesab olunur. Çünki biz öz tariximizi, bizə məxsus olan milli adət-ənənələrimizi, elm və mədəniyyətimiz həm dərindən öyrənməli, bilməli və təbliğ etməliyik ki, məkrli niyyət güdən düşmənlərin, bizə məxsus olanlara sahib çıxmaq istəyənlərin öz məqsədlərinə çatmalarına imkan verməyək, bizə məxsus olanları qoruyaq. Bunun üçün də dövlətçilik tariximizə də, milli adət-ənənələrimizə də, elm və mədəniyyətimizə də hər zaman sahib çıxmalı, onları davamlı olaraq təbliğ etməliyik.

***İnam Hacıyev***



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Vladimirlərin savaşı:
# Putin harada DURACAQ?

***Böyük oyunmu deyim, yoxsa hər dəfə huşunu itirən, ayaqları sözünə baxmayan qoca Co Baydenin ta ötən əsrin 70-ci illərindən bəri beyninə qoyduğu "Rusiyanı çökdürmə əməliyyatı"mı deyim, yoxsa eləcə dünya siyasətinin yenidən bölüşdürülməsimi deyim, hər nədirsə Vladimir Putinin Ukraynadakı müharibəyə nə vaxt, harada "dur" deyəcəyi ən aktual gündəmdir. NATO ilə Rusiyanın sərhədlərini Ukraynanın içinə qədər çəkmək üçün "ağ ayının" düz "evinə" qədər soxulan qərb milyardlarla dollar pul, ölümcül silahlarla slavyan torpaqlarında Moskvaya qarşı vuruşur. Qeyri-rəsmi də olsa fransız, alman, amerikalı, ispaniyalı hərbçilər "könüllü" və yaxud eləcə Ukrayna hərbi uniformasında rus əsgərləri ilə qanlı savaş aparır. NATO de fakto Rusiya ilə müharibə şəraitindədir, burası tam dəqiqdir. Həm də açıq şəkildə məlumdur ki, NATO Ukrayna torpaqlarını özünün Rusiya ilə yeni sərhəd xətti kimi qəbul edir. Belə olmasaydı yüz milyonlarla, hətta milyardlarla dollar, ən bahalı silah-sursat boş yerə slavyan torpaqlarına axmazdı. Maraqları olmasa, Qərb bircə qara qəpiyini belə Ukraynaya uzatmaz. Nəyinə lazımdır slavyana havayı "əppək" versin? Ukraynanın bəxtsizliyi onda oldu ki, ən qanlı növbəti siyasi laboratoriya məhz Kiyev seçildi...***

İndi bu slavyan torpaqlarında axan qanın nə vaxt durdurulacağı, Moskvanın nə zaman hərbi əməliyyatlara son verəcəyi ən aktual məsələdir. Çünki məhz Moskvanın harda, nə vaxt duracağı önəmlidir. Qoca Bayden Ukraynada müharibənin "fitilini" yandırdı, indi o odu söndürmək V.Putinin əlindədir. Rusiya yeni sərhədlərini müəyyənləşdirməsə durmayacaq, burası dəqiq bəllidir. Görəsən bu qanlı oyunu başladanlar Moskvanın əlinə böyük imkanlar verdiklərini hesablamamışdılarmı?-məncə hər kəs hər şeyi əla hesablamışdı. Sanki dünya siyasəti üçün danışılmış qanlı oyun kimi gəlir adama Ukrayna müharibəsi. Yəqin çoxlarınız xatırlayarsınız, bir televiziya proqramında balaca məktəbli ilə sual-cavab edən V.Putin balaca məktəbliyə "Rusiyanın sərhədləri yoxdur" dedi. Gələcək rusiyalıya öyrətdi ki, bu düşüncə ilə yaşa. Keçmiş KQB generalı bu cavabla həm də bütün Rusiya tarixindəki imperiya düşüncəsinin iyirmi ikinci əsrdə də Rusiyada hakim düşüncə olacağını təsdiqlədi. Çox güman ki, artıq Rusiya Ukraynadakı müharibədən məharətlə istifadə edib, qərblə arasındakı istədiyi coğrafiyanı yaradacaq.

Bir ara qərb mətbuatı artıq rus ordusunun "pərən-pərən" düşdüyü barədə informasiyalar da dövriyyəyə buraxırdı. Sanki V. Zelenski qədim Kiyev knyazı kimi Moskva üzərinə şığıyan qəhrəman obrazında təqdim olunurdu. V.Putin sınıq-salxaq tankları Ukrayna çöllərinə səpələyib yanlış rəy formalaşdıranda, əsl Rusiyanı tanımayan qərb mətbuatı sevinc manşetləri atırdı. Keçmiş leninqradlının KQB generalı olduğunu da sanki unudurdular...

Bu gün qərb dövlətlərini ən çox narahat edən digər bir fakt V.Putinin nüvə silahını Belarusda yerləşdirmək qərarıdır. Bu proses baş verərsə bütün Avropa V. Putinin təhdidi altında qalacaq. Xüsusilə Şərqi Avropa ölkələri və Baltikyanı NATO üzvləri daha çox narahatdırlar. Artıq polşadakılar elə həyəcanlanıblar ki, C.Baydendən tələb edirlər: ameriak əsgərləri ayaqyolumuza qədər bizi qorusun! Vay sarı qulaq səni, bunların canına nə vəlvələ salmısansa...

Çünki planları və nə zaman, haradan cavab zərbəsi endirəcəyi sirr olan Kreml sahibinin, bu boyda həngamədən sonra zəiflik göstərməyəcəyi gün kimi aydındır. NATO və ABŞ-ın "qırmızı xətti" keçərək Rusiyanı "öz evinin içində" cəzlandırmaq üçün slavyan Ukraynasına burun soxmalarından sonra Vladimir Vladimiroviçdən qərbə qarşı mərhəmət gözləmək sadəlövhlükdür.

Avropada anlayırlar ki, Qərblə Rusiya arasında "qırmızı xətti" Ukraynanın içərilərinə çəkməklə gec-tez Moskvanın ağır cavab zərbəsi ilə üzləşəcəklər. V.Putinin Rusiyanın dünyadakı mövqelərini qorumaq üçün əks zərbədən başqa yolu da qalmır. Artıq müharibədə həm psixoliji həm də hərbi üstünlük Rusiyanın tərəfinə keçib. Təsəvvür edin ki, ən qatı Rusiya düşmənləri belə etiraf edirlər ki, müharibənin ilk vaxtlarından fərqli olaraq rus əsgərləri daha çox döyüşməyə və xeyli itkilər versələr də, irəli getməyə can atırlar... Müharibənin ilk günlərində rusların müharibəyə münasibəti bir başqa idisə, hazırda rus ordusu təkcə Ukrayna hakimiyyətini deyil, bütün NATO və ABŞ düşərgəsini ən qatı düşmən kimi görünür. Rusun sonradan qızışması ən təhlükəlisidir. Və beləcə aydın olur ki, Rusiya müharibəni öz planlaşdırdığı sərhəddə dayandıracaq. Bəs harada, nə zaman, - onu V.Putinin özündən başqa heç kim bilmir...

# Media subyektlərinin gəlirlərinin vergidən azad edilməsinə BAXIŞ

**Media subyektlərinin (kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxslərin) öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlər, o cümlədən reklam gəlirləri, habelə onlara Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən verilən maddi yardımlar gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilib. Bu, Prezident İlham Əliyevin təbiqi barədə Fərman imzaladığı Vergi Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb. Azadolmalar 2023-cü il yanvarın 1-dən tətbiq edilməklə 3 il müddətində qüvvədə olacaq. SİA mövzu ilə bağlı media rəhbərləri arasında sorğu keçirib və məsələ ilə bağlı onların fikirlərini alıb.**



**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid:** "Azərbaycan Prezidenti cənab İlham Əliyev "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanunu təsdiqlədi. Bu qanunla audiovizual media istisna olmaqla digər media subyektləri öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər, reklam gəlirləri və müvafiq maddi yardımlardan tutulan gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, eləcə də istehsal etdikləri media məhsullarının əlavə dəyər vergisindən 3 il müddətinə azad olunur. Media cameəsinin gözləntilərini doğruldan və günün tələblərinə adekvat olan dəyişiklik, hesab edirəm ki, bu sektorun sosial-iqtisadi durumuna müsbət təsir göstərəcək. Azərbaycanın reklam bazarında medianın iştirak payının onsuz da aşağı olduğu bir vaxtda dövlət başçısının təsdiqlədiyi qanun bu sektorun üzləşdiyi maddi çətinlikləri əhəmiyyətli dərəcədə aradan qaldıracaq.



Bu dəyişiklik qlobal böhran risklərindən qorunma təminatı olmaqla yanaşı, bir yandan da inkişaf üçün imkanların yaradılmasını, perspektivdə medianın sosial-iqtisadi cəhətdən güclənməsini və müstəqil fəaliyyətini şərtləndirən amildir ki, indiki zamanda media sektoru üçün bundan yüksək dividend ola bilməz. Bu, həm də media subyektlərinin bazar münasibətlərində etibarlı tərəfdaş kimi tanınması baxımından çox önəmlidir.

Onu da qeyd etmək lazımdır ki, mediaya dəstək Azərbaycanın dövlət siyasətinin tərkib hissəsidir. Son illər bu sahəyə dəstək məqsədilə atılan addımlar, o cümlədən, jurnalistlərə güzəştli ipoteka kreditinin verilməsilə bağlı müvafiq qaydalara dəyişikliyin olunması, kütləvi informasiya vasitələri məhsullarının nəşri ilə bağlı qəzet kağızının idxalı və satışı üzərindən əlavə dəyər vergisinin götürülməsi, indi isə Vergi Məcəlləsində edilmiş sözügedən dəyişiklik dövlətin bu siyasətinin davamlı xarakter daşıdığının göstəricisidir".

**"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev:** "Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, qəzet və saytların öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq maddi yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsinin isə əlavə dəyər vergisindən 3 il müddətinə azad olunması dövlət tərəfindən mediaya edilən faydalı bir jestdir. Bu, xüsusilə də dövlətdən maliyyə yardımı olan media subyektlərinin maddi baxımdan gəlir əldə etməsinə səbəb olacaq. Bu cür dəstək media subyektlərinin maliyyə müstəqilliyinin artmasına da müsbət təsir göstərəcək.

Bundan öncə jurnalistlərin sosial ipoteka alması istiqamətində atılan addım da təqdirəlayiq idi. Amma ümumilikdə medianın maddi mənbələrə çıxış imkanları da bir qədər artırılmalıdır. Etiraf etməliyik ki, bu gün Azərbaycanın media subyektlərinin əksəriyyəti çətin şərtlər altında çalışır, maddi-texniki bazaları çox məhduddur. Bütün bunlar sonucda peşəkarlıqla bağlı problemlərin yaranmasına səbəb olur. Buna görə də medianın maddi imkanlarının yaxşılaşdırılması bu sahədəki problemlərin həllinə, ənənəvi medianın hazırda üzləşdiyi haqsız rəqabət şəraitində ayaqda qalmasınayardımçı ola bilərdi".



**Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli:** "MEDİA Agentliyinin təşəbbüsü ilə hazırlanmış, Milli Məclisin müzakirələrində qəbul edilmiş və nəhayət, cənab Prezidentin fərmanı ilə qüvvəyə minmiş vergi güzəştləri alqışa layiqdir.



Çap və onlayn media üçün nəzərdə tutulan bu güzəştlər KİV gəlirlərinin 3 il müddətində vergidən azad edilməsini nəzərdə tutur. Bu, dövlət büdcəsinə böyük bir ağırlıq gətirmir. Nəzərdə tutulan güzəştlərin ümumi məbləği təqribən 10 milyon manat civarında qiymətləndirilir. Güzəştlər nəticəsində bu 10 milyon manat dövlətə ödənilməyəcək, KİV-lərin özünə qalacaq. Bu məbləğ KİV-lər üçün çox böyük rəqəmdir. Dövlət büdcəsinə xüsusi ziyan vurmadan peşəkar KİV-lərin gəlirlərin artmasında böyük rol oynayacaq. Nəticədə informasiya məkanımız, bütövlükdə cəmiyyətimiz bundan uduş əldə edəcək.

Azərbaycanda peşəkar media uzun müddətdir ki, sosial mediaya ilə ədalətsiz rəqabət mühitində yaşayır. Sosial şəbəkələrin geniş vüsət tapmasına baxmayaraq, cəmiyyətin ehtiyac duyduğu etimadlı informasiyanı peşəkar KİV-lər hazırlayırlar. Bu baxımdan uzun müddətdir ki, media ekspertləri Azərbaycanda peşəkar media subyektlərinə müəyyən güzəştlərin tətbiq edilməsi ilə bağlı təkliflər verirdilər. Bu təkliflər peşəkar medianın bu ədalətsiz rəqabət mühitində dayanıqlığını və maddi imkanlarını möhkəmləndirməyə yönəlib.

Təəssüf ki, media məkanının özündə mövcud olan xaotik durum, yalançı kəmiyyət çoxluğu bu cür sosial proqramların həyata keçirilməsinə imkan vermirdi. Media Reyestrinin işə düşməsi bu sektordakı xaotik durumu aradan qaldırır. Peşəkar media ilə yalançı KİV arasında sərhədlərin müəyyən olunması dövlətə peşəkar media qurumları üçün müəyyən güzəştlər tətbiq etməyə imkan yaradacaq.

Peşəkar medianın maliyyə mənbələrinin inkişaf etməsi, paralel olaraq media subyektlərinin biznes modelinə keçidinin təmin edəcək, nəticə etibarilə peşəkar jurnalistika ilə məşğul olan şəxslərin də sosial durumlarının yaxşılaşdırılmasına təsir edəcək. Ümumilikdə peşəkar media məkanının inkişaf etməsinə təkan verəcək".

**"Aznews.az" saytının baş redaktoru Taleh Şahsuvarlı:** "Medianın vergidən azad olması çox önəmli bir qərardır. Çünki medianın iqtisadi fəaliyyət imkanları o qədər də geniş deyil. Bu baxımdan media haqqında qanun qəbul olunan ərəfədə də, ondan sonra da



dəfələrlə ictimai müzakirəyə çıxarmışıq ki, mediaya bir sıra vergi güzəştləri tətbiq olunsun. Bu bütövlükdə Azərbaycan mediasının ümumi bir istəyi idi. MEDİA İnkişaf Agentliyi də bu məsələyə olduqca həssas yanaşdı və dövlət qurumlarının qarşısında bu təşəbbüsü ifadə etdi. Şübhəsiz ki, bu müraciətlərə müsbət cavab verilməsi və medianın bir sıra vergi güzəştlərindən azad edilməsi olduqca müsbət haldır. Hesab edirəm ki, bu medianın iqtisadi müstəqilliyinə böyük təkan verəcək. Eyni zamanda, reklam münasibətlərinin də həm şəffaflaşmasına, həm də genişlənməsinə rəvac verəcək bir tendensiya oldu. Bildiyiniz kimi, Azərbaycan mediasının reklam bazarı dar bir səviyyədədir. Reklamlardan gələn cüzi gəlirin də bir hissəsi vergilərə cəlb olunurdu. Buna görə də medianın inkişafında problemlər yaşanırdı. Düşünürəm ki, bu güzəştlərin tətbiq olunması Azərbaycan mediasının bir institut kimi inkişafına təkan verəcək.

Artıq bizim qarşımızda başqa bir hədəf var. Bu da reklam bazarının genişlənməsidir. Reklamdan gələn vəsaitlər xəbər portallarının maddi təminatını və təchizatını gücləndirsin. Ümid edirəm ki, bu məsələlərdə də yaxın zamanlarda müsbət irəliləyişlər görəcəyik".

**"Editor.az" saytının baş redaktoru Fərid Şahbazlı:** "Mən hesab edirəm ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə media subyektlərinin 3 il müddətinə öz fəaliyyətlərindən əldə olunan və onlara edilən müvafiq yardımlar nəticəsində qazanılan gəlirlərin vergidən azad olunması şübhəsiz ki, ölkədə medianın inkişafı üçün atılan müsbət bir addımdır. Tətbiq olunan vergi güzəştləri Azərbaycanda medianın sürətli inkişafı, onun iqtisadi müstəqilliyinin daha da möhkəmləndirilməsi, medianın öz-özünə investisiya etmək imkanlarının genişləndirilməsi üçün yaradılmış bir imkandır. Mən cə-



nab Prezident tərəfindən atılan bu addımı dövlətin media ilə bağlı həyata keçirdiyi kompleks tədbirlərin tərkib hissəsi kimi hesab edirəm. Bugünkü gündə dünyanın qlobal media şəbəkəsində çox ciddi rəqabətlilik hökm sürür. Xüsusilə bizim ölkəmizdə media subyektləri sosial şəbəkələrlə müqayisədə reklam bazarında uduzurdu. Sosial şəbəkələrin reklamlara əlçatanlığı daha rahat idi. Bu qərarın qəbul edilməsi media subyektlərinin sosial şəbəkələrlə rəqabətdə imkanlarını artıracaq. Bu da medianın inkişafına, öz mövcudluqlarını qorumasına, beynəlxalq media şəbəkəsinə inteqrasiya olunmasına və daha keyfiyyətli informasiya siyasəti həyata keçirməsinə imkan yaradacaq".

**"Bayraqdar" Medianın baş redaktoru, media eksperti Azər Həsrət:** "Media subyektlərinə vergi güzəştlərinin tətbiqini Azərbaycan dövlətinin medianın həyatda qala bilməsi və inkişafı üçün atılan addımlardan biri kimi dəyərləndirirəm. Faktiki olaraq dövlət xüsusilə dünyanın bu çətin şəraitində medianın üzləşdiyi sıxıntıları bir qədər azaltmaq üçün belə bir addım atır. Qeyd etmək lazımdır ki, bu, Azərbaycan dövlət başçısının ilk



belə addımı deyil. Buna qədər də medianın fəaliyyətinin davamlılığını təmin etmək, journalist materiallarının keyfiyyətini yüksəltmək üçün dövlət gərəkli dəstəyi göstərib. Hətta Ulu Öndər Heydər Əliyevin dövründə də medianın bu və ya digər şəkildə dəstəklənməsi üçün çox ciddi addımlar atılıb. İndi vergi məcəlləsinə edilən dəyişikliklər də Azərbaycan mediasının növbəti mərhələ üçün özünü dirçəltməsi, davamlılığını təmin etməsinə xidmət edəcək. Əlavə maliyyə yüklərindən azad olmaqla media keyfiyyət məsələlərinə daha ciddi bir şəkildə diqqət yetirəcək. Eyni zamanda, media üçün oxucu, dinləyici auditoriyasını genişləndirməyə şərait yaranacaq. Azərbaycan dövlətinin bu yanaşması növbəti təqdirəlayiq addım kimi dəyərləndirilməlidir".

***Ləman Əlizadə***

Sorğu



# KƏLBƏCƏR:

## 27 illik qış ömrünə 44 gündə bahar gələn qədim yurd

***Kəlbəcər bir-birinin ardınca 27 qış yaşadı. Bahar gəlmədi bu qədim yurda. Gələ də bilməzdi. Çünki Kəlbəcər baharı qovmuşdu ağuşundan. Köksünü qışa açmışdı. Ta azad olanadək qış ömrü yaşayacağına and içmişdi. Dağlarının min rəngli, min bir ətirli çiçəyinə "get" demişdi. "Gəlmə, hüsnümü bəzəmə, ruhumu oxşama, yaslıyam, qoy yasımı tutum",- demişdi.***

Kəlbəcər özünü bütünlüklə qışa vermişdi. Qara, buza, soyuğa vermişdi. Kimlə bahar qarşılayacaqdı ki?.. Doğmaları bu yurddan zorla çıxarılmışdı. Bağrı üstündə düşmən tapdağını hiss etdikcə Kəlbəcər əzilirdi, doğmalarının həsrəti ilə yanıb-yaxılırdı. Sərvətlə dolu köksünə hər dəfə əl uzadıldıqda haray çəkirdi. Düşmənin talançılığına qarşı üsyan edirdi. Lakin səsi yalnız dağ-daşına yayılır, əks-səda verir və yenidən bağrına qayıdıb onu boğurdu...

27 qış keçdi Kəlbəcərin ömründən... Doğmalarının olmadığı qış. Kəlbəcərin gözünün yollarda qaldığı qış... Sən demə 27-ci qış Kəlbəcərin son qışı olacaqdı. 2020-nin payızı Kəlbəcəri qışa deyil, bahara aparacaqdı. Payız bahara çevrilib Kəlbəcərin 27 illik həsrətini də vüsala çevirəcəkdi. 27 il əvvəl güllələbaran yağışı altındakı işğalından fərqli olaraq, bu dəfə bir güllə belə atılmadan azad ediləcəkdi. Çünki məxsus olduğu ölkə 27 il öncəki ölkə deyildi. Hakimiyyət kürsüsünü möhkəmlətmək üçün satılaraq Kəlbəcəri bir qələmlə silib onu ermənriyə hədiyyə edən AXC-Müsavat birləşməsi çoxdan tarixin qara qutusuna atılmışdı. Onlardan əsər-ələmət belə qalmamışdı. Özləri yaşasalar da, xalq onları silmişdi. Bir daha onlara inanmamağa and içərək silmişdi.

Kəlbəcərin işğalı ilə azadlığı arasında ötən zaman kəsiyində isə onun və Qarabağın bütün işğal altında olan torpaqlarının azad olunması üçün uzun illərlə iş aparılmışdı. Ulu Öndərimizin bu istiqamətdə həyata keçirdiyi işlər cənab İlham Əliyev tərəfindən elə bir səviyyəyə gətirilmişdi ki, ya sülh yolu, ya da hərb yolu ilə bu torpaqların azad olunması reallaşacaqdı. Uzun illər sülh yoluna cəhd edilsə də, lakin dünya susdu və biz hərb yolunu seçməli olduq. Hərb yolu ilə 44 gün içərisində Azərbaycan Milli Ordusu elə bir bacarıq nümayiş etdirdi ki, dünənədək susan dünya dilə gəlib bu səriştədən danışmağa başladı. Beləliklə Qarabağa yeni bir həyat qayıtdı. Bu yeni həyatdan Kəlbəcərə də pay düşdü.



### Biz Kəlbəcəri bərpa edirik

Kəlbəcər dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi böyük siyasətlə müharibəsiz, döyüşsüz geri alındı. Bu qədim yurd yerimiz azad edildikdən dərhal sonra burada quruculuq, bərpa işlərinə başlanıldı ki, kəlbəcərlilər qısa zamanda doğma yurdlarına qayıda bilsinlər. Çünki düşmən bu yurdumuzu da qarət etmiş, buradan çıxarkən vəhşiliyin bütün növlərini bu əzəli Azərbaycan yurduna tətbiq etmişdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır".

27 ilin əvvəlində baxımsız, sonrakı illərdə daşlaşan-kəsəkləşən Kəlbəcər yolları keçilməz vəziyyətə düşdüyündən dağlıq ərazidə yerləşən bu rayon üçün yol infrastrukturu olduqca əhəmiyyətlidir. Bütün bunlar isə rayon işğaldan azad olunan bir gündən diqqətdə saxlanılır və Kəlbəcərə gedən yollar abadlaşdırılır.

2021-ci ildə Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının fəaliyyətə başlaması, Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən 72,8 kilometr uzunluğunda Kəlbəcər-Laçın avtomobil yolunun tikintisinə başlanması, bu yol üzərində 3,4 kilometr uzunluğundakı tunelin təməlinin qoyulması, İstisuya əvvəlki şöhrətini qaytarmaq üçün 51 kilometr uzunluğunda İstisu-Minkənd yolunun tikintisi Kəlbəcərin azadlığından sonra abadlığına doğru gedən yolda ilkin olaraq gördüklərimizdir.

### Baş planla özünəməxsusluğu qorunan Kəlbəcər

Soydaşlarımızın ata-baba torpaqlarına qayıdarkən gözəl şəraitdə yaşaya bilmələri üçün dövlətimiz tərəfindən İkinci Vətən Müharibəsindən dərhal sonra geniş tədbirlərə başlanılmışdır.

Ötən il iyunun 26-da ölkəmizin rəhbəri Kəlbəcər şəhərinin Baş planı ilə tanış olarkən ona məlumat verilmişdir ki, Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Baş planda nəzərdə tutulanlar Kəlbəcərin yaxın gələcəkdə sahib olacaqlarını gözlər önündə canlandırır. Bu yurd yeri dövlət başçısının Kəlbəcərə öncəki səfəri zamanı söylədiyi "Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir" dəyərli fikirlərindəki kimi qurulur, yaradılır, cənnətə çevrilir.

### Tarixin o üzü, bu üzü: İşğal və Zəfər muzeyləri

Dövlətimizin başçısının təşəbbüsü ilə işğaldan azad edilmiş rayonlarımızda yaradılacaq İşğal və Zəfər muzeyləri 30 illik bir tarixin salnaməsləşdirilməsi, tarixin səhifələrində canlı şəkildə yaşadılması istiqamətində atılmış mütərəqqi addımdır. Bu muzeylər Ağdam, Cəbrayıl, Füzuli və Zəngilan rayonları kimi, Kəlbəcərdə də yaradılacaq.

Prezident İlham Əliyev Kəlbəcərə səfəri çərçivəsində İşğal və Zəfər muzeylərinin layihəsini əks etdirən videoçarxa baxmış, ona məlumat verilmişdir ki, hər iki muzey şəhərin mərkəzində salınacaq parkda tikiləcək. Bu, gözəl bir mühitdə yerləşən möhtəşəm layihə olacaq. Çünki bu ərazi landşaftına görə heyrətamiz gözəlliyə malikdir.

TƏHLİL

Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə Zəfərə həsr olunacaq. Bu layihə ilə həm də təbiətə ehtiram nümayiş olunacaq.

"ACN" şirkətinin nümayəndəsinin ermənilərin buranı işğal etdikləri, lakin burada yaşamadıqları, hər şeyi bir-bir dağıtdıqları qənaətinə Prezident İlham Əliyevin münasibəti: Bunu etmək üçün heç bir səbəb yox idi. Biz onlara qarşı heç bir pis iş görməmişik. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar bizim torpağımıza gəldilər, hər şeyi dağıtdılar və getmədilər. Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

Dövlətimizin başçısı İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoymaqla tariximizdə yeni bir səhifə açdı. Elə bir səhifə ki, gələcək nəsillər Kəlbəcərin tarixini bu muzeylər vasitəsilə oxuyub öyrənəcəklər.

## Qaranlığın sonundakı işıq

Təbii ki, daşı daş üstündə qalmayan torpaqlarımızın abadlaşdırılması üçün elektrik enerjisi vacib şərtlərdən biri idi. Odur ki, Zəfərdən dərhal sonra Qarabağın işıqlandırılması işlərinə başlanıldı.

İşğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verildi. Artıq bu stansiyalarda milyonlarla kilovat/saat elektrik enerjisi istehsal olunur.

Ötən il iyunun 26-da Prezident İlham Əliyev Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak edərkən dövlətimizin başçısına məlumat verildi ki, Lev çayı üzərində inşa olunan stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir.

"Yaşıl enerji zonası" konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıb. Burada 110/6 kilovoltluq yarımstansiya da inşa edilib."Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə Kəlbəcərdən olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər demək olar işçi heyət olmadan işlədilir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.

Dövlətimizin başçısı stansiyanı işə saldı və 27 il qaranlıqda mürgüləyən Kəlbəcər ona bəxş olunan nurun ilk zərrəciklərinə qərq oldu.

"Yaşıl enerji" strategiyasına uyğun olaraq Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su elektrik stansiyası da qurulur. Bu elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Stansiyaların enerji sisteminə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilib. Stansiyaların rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya edilməsi ilə açılıb-qoşulma, intellektual tənzimləmə, operativ monitorinq və təhlil aparılması mümkün Kəlbəcərdən olduğu kimi, Bakıdan da həyata keçiriləcək.

Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir.

"Azərenerji" ASC-nin mütəxəssislərinin apardığı araşdırmalar göstərir ki, ermənilərin təbiəti məhv etməklə köhnə nəsil texnologiyalar əsasında kortəbii hesablamalarla apardıqları planlaşdırmadan fərqli olaraq, dördüncü nəsil sənaye inqilabına uyğun süni intellektə adaptasiya edilən müasir texnologiyalar əsasında ölkənin ən böyük su bazası olan bol sulu Kəlbəcər və Laçın çayları üzərində nəzərdə tutulandan dəfələrlə artıq ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal etmək mümkündür.




Ötən il Kəlbəcərdə olarkən dövlətimizin başçısına rayon ərazisində xüsusi dövlət əhəmiyyətli obyektlərin və hərbi hissələrin elektrik enerjisi ilə təmin olunması istiqamətində genişmiqyaslı işlər çərçivəsində mənbə kimi Gəncə şəhərində yerləşən "Gəncə-2" yarımstansiyasından Daşkəsənə 110 kV-luq elektrik verilişi xətti çəkilməsi barədə də məlumat verilmiş, bu xəttin Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatında müstəsna rol oynayacağı bildirilmişdi. Bu, Azərbaycanda ən mürəkkəb və çətin relyeflərdən keçən yüksəkgərginlikli xətdir. Bunun üçün də dağlarda texnikanın rahat hərəkət etməsi üçün əvvəlcə yol inşa edilmişdi.






Qeyd edək ki, Kəlbəcərin yüksək dağlıq ərazidə yerləşməsinə və çətin şəraitə baxmayaraq, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən işlər yüksək səviyyədə həyata keçirilir. Sovet dövründə elektrik enerjisinin olmadığı ucqar ərazilərdə belə müasir elektrik şəbəkələr qurulur. Rayonun Alagöllər və digər əraziləri ilk dəfə "Azərişıq" ASC tərəfindən elektrik enerjisi ilə təmin olunur, Zod qızıl yatağı ərazisinə 35 kV-luq mühafizəli, izolyasiyalı kabel xətti çəkilir.

Görülən işlər nəticəsində Kəlbəcərdə iki istiqamət üzrə 110 kV-luq hava xətləri bərpa edilib, bir istiqamətdə 110 kv-luq, dörd müxtəlif əraziyə isə 35 kV-luq elektrik xətləri çəkilib. Ümumilikdə rayon ərazisində müxtəlif güclərdə 15 komplekt transformator məntəqəsi quraşdırılıb. Bundan başqa, altı müxtəlif istiqamətdə 35 kV-luq müasir izolyasiyalı kabel xətlərinin çəkilməsi nəzərdə tutulub. Həmçinin 110/35 kV-luq "İstisu" yarımstansiyasının, Kəlbəcər və Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxeminin yaradılması planlaşdırılıb.

## Kəlbəcərdə hərbi hissənin açılması xüsusi məna daşıyırdı

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ötən il iyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etməsini ordu quruculuğuna növbəti töhfə kimi dəyərləndirmək olar.

Prezident, Ali Baş Komandan İlham Əliyevin şəxsi heyəti salamlaması, hərbçiləri 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik etməsi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad olunması, şəxsi heyətin hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etməsi işğaldan azad edilmiş Kəlbəcərdə ürəklərimizi qürurla doldurdu. Zəfərin sevincini yenidən yaşadıq.

Dövlətimizin başçısı: Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək... Bu, bizim gücümüzü daha da artıracaq. Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər var. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi - artıq buna start verilir. Əlbəttə ki, biz, ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır.

## Kəlbəcərin "İstisu"lu günlərinə doğru...

Nəinki işğaldan azad olunmuş rayonlarımız abadlaşdırılır, yeniləşdirilir, hətta bir zamanlar həmin yerlərdə fəaliyyət göstərən obyektlərə də yeni həyat verilir. Bu baxımdan dünyaca məşhur olan "İstisu"nun da əvvəlki şöhrətinin özünə qaytarılması təqdirolunası haldır.

Ötən il iyunun 26-da Prezident İlham Əliyevin Kəlbəcərdə "İstisu" mineral su zavodunun və "İstisu" sanatoriyasının təməlini qoyması qoyması yaxın gələcəkdə "İstisu"nun şöhrətindən xəbər verir. "İstisu" bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər göstərib ki, mineralların miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir.

Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür.

Prezident İlham Əliyev: İstisu qəsəbəsinin inkişafı ilə bağlı artıq konkret addımlar atılır. İlk növbədə, yeni su zavodunun tikintisi nəzərdə tutulur. Bu gün mən bu su zavodunun təməlini qoydum. Vaxtilə məşhur olan İstisu suyu yenidən buraxılacaq, istehsal olunacaq, Azərbaycanda istehlak olunacaq və ixrac ediləcək. Eyni zamanda, arxada gördüyünüz "İstisu" sanatoriyasının dağıntılarıdır. Keçən il burada bu dağıntılarla tanış oldum və göstəriş verdim ki, bu yerdə - İstisu qəsəbəsində yeni mehmanxana inşa edilsin və müalicə mərkəzi yaradılsın. Çünki vaxtilə sovet dövründə minlərlə insan gəlib burada dincəlib, öz sağlamlığını bərpa edib, bu gözəl təbiətdən zövq alıb.

Zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulması planlaşdırılır. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq. Suyun mənbəyinə gəldikdə, 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60-65 C dərəcəyə bərabərdir.

34 hektar ərazidə salınması nəzərdə tutulan "İstisu" İstirahət-Müalicə Kompleksi isə gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılır.

Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb. İşğal dövründə yararsız hala salınan sanatoriya yenisimada tam bərpa olunacaq və əvvəlki şöhrəti qaytarılacaq.

Kəlbəcər artıq iki ildən artıqdır ki, azadlığına qovuşub. Bu azadlıqla həm də 27 illik qış ömrünə son qoyub, bahar hüsnünə yenidən çağırıb. İki ildir ki, Kəlbəcər yaylı-qışlı bahar ömrünü yaşayır. Kəlbəcər tikilir, qurulur, nura boyanır. Bütün bu gözəlliklər isə ürəkləri qürurla dolduran bir məsələyə xidmət edir: kəlbəcərlilərin tezliklə öz ata-baba yurdlarına qayıtmasına. O gün isə çox yaxındadır. Baxdıqca baxacağımız, azadlığından duyduğumuz qürura qürur qatacağımız günlər çox yaxındadır.

**Mətanət MƏMMƏDOVA**

# Formula 1 təqvimində Azərbaycan Qran Pri yarışı

***Azərbaycanın inkişafı, möhtəşəm nailiyyətlər ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara və konfranslara ev sahibliyi etməsinə səbəb olub. Paytaxt Bakıda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar, Gənclər Siyasəti üzrə I Qlobal Forumu, Caz Festivalı, "Eurovision-2012" musiqi yarışması, "Bakı Elm Festivalı-2014", BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu və onlarla belə mühüm əhəmiyyət kəsb edən tədbirlərin təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi və yüksək imici səbəbdir.***



Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunmuş və bu gün də belədir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya Çempionatı, "Baku World Challenge" avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırıb. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuşdu.

Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Keçirilən tədbirlər sırasında ölkəmizdə keçirilən və dünyanın diqqətini cəlb edən ən əhəmiyyətli idman tədbirlərindən biri olan "Formula - 1" yarışmasıdır. Azərbaycanın idman tarixində yeni bir səhifə olan elit yarışmalar sırasında yer alan "Formula-1" yarım əsrdən artıq tarixində yaddaqalan zamanını yaşayır. 2016-cı ildən başlayaraq, paytaxtımızda keçirilən "Formula-1" yarışlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb. Azərbaycan növbəti dəfə "Formula - 1" yarışmasına ev sahibliyi edəcək. 2023 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında dövlət başçısı Sərəncam imzalayıb. Sərəncama əsasən, 2023 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2023-cü il aprelin 1-dən mayın 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2023 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat verəcək. 2023 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin edəcəkdir.

Sərəncamda o da qeyd olunur ki, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2023 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

Qeyd edək ki, 2023 Formula 1 Azərbaycan Qran Pri yarışı aprelin 28-30-da Bakı şəhər halqasında keçiriləcək. Qeyd edək ki, ötən il keçirilən Bakı yarışının qlobal auditoriyası 60 milyona yaxın olub. Bir çox ölkələrdə izləyici sayı ötən illə müqayisədə əhəmiyyətli dərəcədə artıb. 2022-ci il Azərbaycan Qran-Prisini Formula 1-in rəsmi veb səhifəsi və mobil tətbiqi vasitəsilə 8 milyondan çox unikal istifadəçi izləyib. Bu rəqəm 2021-ci illə müqayisədə 9 faiz, 2019-cu illə müqayisədə 111 faiz artıb. Dünya çempionatının Azərbaycan mərhələsinin sosial media izləyicilərinin sayı 116 faiz artmaqla yüksək həddə çatıb. Bundan başqa, Formula 1 azarkeşləri arasında keçirilən sorğuya əsasən, respondentlərin 74 faizi Formula 1 Azərbaycan Qran-Prisinin davamlı keçirilməsinin tərəfdarıdır. Azarkeşlərin 73 faizi Bakı şəhər halqasının F-1 yarışının təşkili üçün möhtəşəm yer olduğunu, 74 faizi isə onun ötmə manevri üçün ideal imkan yaratdığını qeyd edib. Ümumilikdə respondentlərin 62 faizi Bakı yarışının Formula 1 təqvimində ən sevimli yarışlardan biri olduğunu vurğulayıb. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan, təşkilatçılıq, təhlükəsizlik və iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlər yüksək səviyyədədir.

**Nəzakət ƏLƏDDİNQIZI**



# Heydər Əliyev-100

***Bu gün yenə dilimizin əzbəri Heydər Əliyev fenomenindən danışırıq, onun bənzərsizliyindən söhbət açırıq. Bu siyasət korifeyinin heç vaxt, heç bir təbliğ təntənələrinə ehtiyacı olmasa da biz dönə-dönə ona qayıdacağıq. Ulu Öndər Heydər Əliyev cənablarının fəaliyyəti xalqımızın və respublikamızın gələcəyi üçün örnək, zəngin həyat məktəbi, əvəzsiz nümunədir. Bu məktəbi keçmək, ondan öyrənmək böyük bir nemətdir.***











## Ulu öndərin melorasiya və su təsərrüfatına verdiyi töhfələr uğurlarımızın rəhnidir

*Saleh Sadıqov*
*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC Hidrogeoloji Meliorativ Xidmət və Suların İstifadəsinə-Mühafizəsinə Nəzarət İdarəsinin rəisi, respublikanın əməkdar mühəndisi, YAP Ü.Hacıbəyov 84 ərazi təşkilatının sədri*

Heydər Əliyev böyük uzaqgörənliklə "Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam... Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır" dedi və xalqımız qarşısında göstərdiyi möhtəşəm xidmətlərinə görə tarixdə əbədi yaşamaq haqqı qazandı.

Yaşadığımız 2023-cü il bir də onunla əlamətdardır ki, bu il Heydər Əliyev ili kimi tarixə düşür və Ulu öndərin 100 illik yubileyi ili kimi yaddaşlara həkk olunur. Ölkəmizin hər yerində Ümumilli liderimizin yubiley tədbirlərinə xalqımız böyük sevgi və çoğqu ilə hazırlaşır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin çoxsaylı kollektivi, xüsusulə Cəmiyyətin YAP ilk ərazi təşkilatının üzvləri də bu dahi şəxsiyyətin yubileyini əməli töhfələri ilə qarşılayırlar.

Cəmiyyətin YAP ilk ərazi təşkilatı Heydər Əliyevin ideyalarının və zəngin tarixi irsinin gənc nəslə aşılanması üçün mütəmadi olaraq tematik tədbirlər keçirir, təbliğat-təşviqayt işlərini genişləndirir. Ulu öndərin bütövlükdə Azərbaycan üçün gördüyü işlər , eləcə də meliorasiya və su təsərrüfatının inkişafındakı misilsiz xidmətləri kollektiv arasında geniş müzakirə edilərək Ümumilli liderin ölməz ideyaları gənclərin qan yaddaşına həkk olunur.

ASC-nin YAP ilk ərazi təşkilatı Ulu öndərin zəngin ideyalarını özündə əks etdirən, YAP-nın nizamnaməsindən irəli gələn vəzifələrə sadiqliyini daimi nümayiş etdirməklə yanaşı, respublikamızın sosial-ictimai həyatında da fəal iştirak edir. Partiya sıralarında yüksək mənəvi və intelliaktual səviyyəli, Heydər Əliyev ideyalrına sadiq gənclərin birləşməsi üçün məqsədyönlü marifləndirmə tədbirlər həyata keçirir.

"Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış Ulu öndər Heydər Əliyev Azərbaycanın kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısıdır.

1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilən Heydər Əliyev heç bir ay keçməmiş Mərkəzi Komitənin avqust plenumunu keçirdi, iqtisadiyyatı bərbad vəziyyətdə olan respublikanı dirçəltmək üçün qarşıda duran vəzifələri müəyyənləşdirdi

Ölkəmizdə meliorasiya və irriqasiya işlərinə maraq hələ XIX əsrin ikinci yarısından başlanmasına baxmayaraq, meliorasiya və irriqasiya işlərinin inkişaf edərək, geniş miqyasda vüsət tapması 1969-1982-ci illərə, yəni unudulmaz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrə təsadüf edir.

Meliorasiya və su təsərrüfatının inkişaf etdirilməsi sahəsində 1970-ci ildən başlayaraq cənab Heydər Əliyevin göstərişləri əsasında həyata keçirilən silsilə tədbirlər respublikada kənd təsərrüfatı məhsullarının istehsalında böyük nailiyyətlərin əsasını təşkil etmişdir. 1983-cü ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 1970-ci ildəkinə nisbətən 2,2 dəfə artmışdır.

1976-1982-ci illərdə respublikanın rəhbəri Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində su təsərrüfatı sahəsində aparılan işlərin miqyası daha da genişləndirildi. Bu illərdə meliorasiya tədbirlərinə yönəldilən vəsaitin həcmi 1971-1975-ci illərdəkinə nisbətən 2,4 dəfə artdı və 1 milyard 382 milyon manata çatdı, 1,2 milyard manata yaxın əsas fondlar işə salındı, 89,6 min hektar yeni suvarılan torpaqlar istifadəyə verildi, 605 min hektar sahədə suvarma sistemləri yenidən quruldu, 137 min hektar torpaq meliorativ cəhətdən yaxşılaşdırıldı, 274,4 min hektar sahədə əsaslı hamarlama işləri aparıldı.

Bu dövrdə Tərtərçay üzərində 143 min 500 hektar sahəni suvara biləcək, həcmi 565 milyon kubmetr olan Sərsəng su anbarı su elektrik stansiyası ilə birlikdə, həcmi 5,86 milyon kubmetr olan Suqovuşan (Madagiz) su anbarı, Tərtərçay magistral kanalları, Naxçıvan MR-də Arpaçay üzərində həcmi 150 milyon kubmetr olan Arpaçay su anbarı və magistral kanallar, Naxçıvançay çayından qidalanan, həcmi 12,7 milyon kubmetr olan Sirab su anbarı, Füzuli rayonunda Aşağı Köndələnçay su anbarı, Lənkəran rayonunda həcmi 52 milyon kubmetr olan Yuxarı Xanbulançay su anbarı kompleksi, Tovuz rayonunda üçpilləli nasos stansiyası və digər obyektlər tikilib istifadəyə verildi. Kür çayı üzərində Şəmkir su anbarının, Şəki rayonunda Əyriçay su anbarının, Qazax rayonunda Coğazçay su anbarının, Füzuli rayonunda Qozluçay, Naxçıvan MR-də Qıvraq və Həmzəli nasos stansiyalarının və s. obyektlərin inşasına başlanıldı.

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə (1969-1982-ci illər) meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da Sovet hakimiyyəti dövrünün 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfədən artıq olmuşdur. Bu illərdə 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı yaxşılaşdırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Meliorasiya və su təsərrüfatı kompleksində əldə edilmiş nailiyyətlər Ulu öndər Heydər Əliyevin bu sahəyə olan daimi diqqət və qayğısı nəticəsində əldə edilmişdir. Respublikamız üçün son dərəcə vacib olan Tərtərçay hidrokompleksinin, Xanbulançay su anbarının və Samur- Abşeron kanalının yenidən qurulması obyektlərinin açılışında ümummilli lider Heydər Əliyevin iştirakı onun meliorasiya və su təsərrüfatına, bu sahənin inkişafına olan diqqət və qayğısının əyani sübutudur.

Hazırda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən ümumi sututumu 22 milyard kubmetr olan 109 su anbarından istifadə edilir, 19 hidroqovşaq, 52309 km suvarma kanalı, 32449 km kollektor-drenaj şəbəkəsi, 1049 nasos stansiyası, 140659 müxtəlif hidrotexniki qurğu, 9578 subartezian quyusu, 2000 km-dən artıq sel və daşqına qarşı mühafizə bəndi, 125 min ha qış otlaq sahələrinin su təminatına xidmət edən digər mühüm dövlət əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları istismar olunur. Onların sırasında Ağstafaçay. Arpaçay, Xanbulançay və s. su anbarları, Mil-Muğan, Bəhrəmtəpə, Samurçay hidroqovşaqları, Samur-Abşeron, Yuxarı Qarabağ, Yuxarı Şirvan, Cənubi Muğan magistral kanalları, Baş Mil-Muğan, Baş Şirvan, Mil-Qarabağ, Aşağı Şirvan magistral kollektorları, Tovuz, Şəmkir, Cənubi Muğan nasos stansiyaları, başqa vacib irriqasiya və meliorasiya sistemləri və qurğuları vardır.

1993-cü ilin iyun ayında xalqımızın böyük oğlu Heydər Əliyev ikinci dəfə yenidən Azərbaycanın rəhbərliyinə qayıtdı. Müstəqil Azərbaycan dövlətinin xilaskarı missiyasını şərəflə həyata keçirən Heydər Əliyev fəaliyyətə başlayanda bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı kompleksində də böhranlı vəziyyət hökm sürürdü, böyük zəhmət və küllü miqdarda vəsait hesabına yaradılmış qurğular, suvarma sistemləri qəza halına düşmüşdü, sahənin fəaliyyətinə ayrılan sərmayənin həcmi heçə endirilmişdi.

Ümummilli liderimizin ikinci dəfə respublika rəhbərliyinə gəlişi meliorasiya və su təsərrüfatını məhv olmaqdan xilas etdi, sahə öz inkişafının yeni mərhələsinə qədəm qoydu, ona diqqət və dövlət qayğısı bərpa olundu, meliorasiyanın potensialından daha səmərəli istifadə olunması yolları və onun gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Sahənin əhəmiyyətini yaxşı bilən Heydər Əliyevin göstərişləri əsasında respublikaya gələn xarici investisiyaların müəyyən hissəsi meliorasiya və su təsərrüfatının inkişafına yönəldildi.

*Ardı Səh. 12*

# Ulu öndərin melorasiya və su təsərrüfatına verdiyi töhfələr uğurlarımızın rəhnidir

Əvvəli Səh. 11

MDB ölkələri arasında ilk dəfə Azərbaycanda 1996-cı ildə "Meliorasiya və irriqasiya haqqında" Qanun qəbul edildi. Bundan iki il sonra "Azərbaycan Respublikasının Su Məcəlləsi", daha sonra isə "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Qanun qüvvəyə mindi. Həmin qanunlar əsasında müvafiq normativ-hüquqi sənədlər hazırlanıb təsdiq edildi. Şəxsən cənab Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycan Respublikasının Su Məcəlləsi" ölkəmizdə su münasibətlərinin tənzimlənməsi yolunda uğurlu bir addım olmuşdur.

Meliorasiya və irriqasiya sahəsində islahatların aparılması, onun gələcək inkişafının təmin olunması üçün ümdə əhəmiyyətə malik həmin qanunlar və onların əsasında qəbul edilmiş 30-a yaxın normativ-hüquqi sənəd meliorasiya və su təsərrüfatında işlərin istiqamətlərini, prinsiplərini, habelə belə obyektlərdə mülkiyyət formalarını müəyyənləşdirdi. Ulu öndərin idarəetmə işinin təkmilləşdirilməsi ilə bağlı göstəriş və tövsiyələrini rəhbər tutaraq, meliorasiya və su təsərrüfatında idarəetmə orqanlarının strukturu və fəaliyyət istiqamətləri yeni şəraitə uyğunlaşdırıldı.

Ulu öndərin göstərişləri əsasında meliorasiya və su təsərrüfatına yönəldilən xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçilərək onlardan üçünün - Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan MR-də Vayxır su anbarının inşasının birinci növbədə maliyyələşdirilməsi qərara alındı. İslam dünyasının Heydər Əliyevə böyük hörmətinin və ehtiramının təzahürü kimi İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin hazırlanmasına əvəzsiz olaraq vəsait (qrant) ayırdı.

Azərbaycan Respublikasının tərəqqisinə bütöv ömrünün həsr etmiş Heydər Əliyev demişdir: "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik". Ümummilli liderimizin bu tövsiyəsi meliorasiya və su təsərrüfatı kompleksi kollektivlərinin başlıca fəaliyyət proqramıdır. Biz həmin proqrama daim sadiq qalacağıq.

Böyük fəxr hissi ilə qeyd edilməlidir ki, ulu öndərimiz, müasir Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin siyasi xətti və ideyaları möhtərəm Prezitentimiz İlham Əliyev tərəfindən layiqincə və müvəffəqiyyətlə davam etdirilir. Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu sahəsində, iqtisadiyyatımızın yenidən qurulmasında, davamlı inkişaf yoluna çıxmasında, milli adət-ənənələrimizin qorunub saxlanılmasında və digər istiqamətlərdə böyük nailiyyətlər əldə olunur.

İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə meliorasiya və su təsərrüfatı sistemində də xeyli iş görülmüş, bir sıra mühüm layihələr reallaşdırılmışdır. Ölkə başçısının bu sahəyə diqqətinin nəticəsi olaraq meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 4,3 dəfə, bütün maliyyə vəsaitləri hesabına sahəyə əsaslı kapital qoyuluşu isə 22 dəfəyə yaxın artmışdır. Bunun nəticəsində mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşmış, sistem üzrə işçilərin əmək haqqı 5,7 dəfə artmış, sahənin maddi-texniki bazası gücləndirilmiş, 800-dən artıq maşın və mexanizm alınmış, 247 km təsərrüfatlararası suvarma kanalları, 244 km kollektor-drenaj şəbəkələri tikilib istifadəyə verilmiş, 201 min hektar suvarılan torpaqların su təminatı və meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. 479 ədəd subartezian quyusu qazılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 27 iyul 2020-ci il tarixli, 2178 saylı Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nın icrası ilə əlaqədar Səhmdar "Azmelsutəsərrüfat" ASC tərəfindən səlahiyyətlərinə uyğun olaraq ölkənin əsas su və su təsərrüfatı obyekltərində su ehtiyatlarından səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması üçün müasir texnologiyalara əsaslanan ölçmə cihazlarının quraşdırılması, alternativ mənbələrdən, o cümlədən təmizlənmiş tullantı və kollektor-drenaj sularından, ölkə ərazisində antropogen təsirlər nəticəsində formalaşan sututarların suyundan istifadə məqsədilə ilkin olaraq mövcud 22 ədəd hidroqovşaq və suvarma kanallarının yenidən qurulmasının texniki-iqtisadi əsaslandırılmasına və layihə sənədlərinin hazırlanmasına başlanılmış, eləcə də Əlicançay su anbarının layihə sənədlərinin hazırlanması davam etdirilmiş, Qəbələ rayonu ərazisində Yengicə su anbarının tikintisi üzrə hazırlıq işlərinə başlanılmışdır.

Heydər Əliyevin uzaqgörən siyasəti, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi , polad iradəsi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyümüzü bərpa etdi. Bu zəfərlə biz Ermənistanın 20 faiz ərazilərimizin 30 illik işğalına son qoyduq.

Qəlbimizdə yüksək qürur hissi yaradan şanlı və tarixi qələbəmiz Azərbaycan xalqında milli oyanışa, yeni bir dirçəlişə, birliyə səbəb oldu. Xalqımızın tələb və dəstəyi ilə 2003-cü ildən respublikamıza rəhbərlik edən Prezident İlham Əliyevin uzaqgörən, qətiyyətli və proqmatik siyasəti sayəsində bütün sahələrdə yüksək inkişaf mərhələsinə qədəm qoyuldu. İqtisadi, hərbi və siyasi sahədəki misilsiz uğurlarımız artıq birmənalı şəkildə dünya dövlətləri tərəfindən də qəbul edilir.

Ölkə başçısının diqqət mərkəzində olan, işğaldan azad olunmuş ərazilərdə hidrotexniki qurğuların bərpası, əkinə yararlı torpaqların meloratıv vəziyyətinin və su təminatının yaxşılaşdırılması istiqamətində görülən tədbirlər əvvəlki illərdə olduğu kimi cari ildə də "Azmelsutəsərrüfat" ASC-nin fəaliyyətinin prioritet istiqamətlərindən olmuşdur.

Bu tədbirlər çərçivəsində ötən il oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Qubadlı rayonu ərazisində yaradılacaq "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanış olmuş və Azərbaycan Meliorasiya və Su təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov dövlətimizin başçısına layihələr barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, aparılmış müvafiq araşdırmalar əsasında layihələrdə nəzərdə tutulan ümumi ərazisi 12 min 100 hektar olan əkin sahəsinə saniyədə 6,18 kubmetr suyun mütəmadi verilməsi üçün tutumu 26,7 milyon kubmetr olan su anbarının yaradılması daha münasib hesab edilib. Su anbarının hündürlüyü 40 metr, uzunluğu 615 metr olan torpaq bənddən yaradılması təklif edilib.

Zabuxçay çayının suyunun yeni su anbarında tənzimləməklə uzunluğu 49 kilometr olan polad boru xətti ilə Qubadlı və Zəngilan rayonlarında yerləşən torpaq sahələrinə suyun verilməsi, eyni zamanda, layihədə subasar zonadan avtomobil yolunun kənarlaşdırılaraq yeni yolun çəkilməsi və bəndyanı Su Elektrik Stansiyasının tikilməsi nəzərdə tutulur.

Nəticə etibarilə, Qubadlı və Zəngilan rayonları ərazisində "Dost Aqro" şirkətinin 1900 hektar, "Azərsun" MMC-nin 3300 hektar, "AzərAqrar" şirkətinin 2500 hektar, "Aqrovay" şirkətinin 2700 hektar, "Dost Ziraat Heyvandarlıq" şirkətinin 1700 hektar əkin sahəsi suvarma suyu ilə təmin oluna bilər.

Ərazi bütövlüyümüz bərpa olunmaqla su mənbələrimiz də, işğaldan azad edilmiş və bütün istiqamətlərdə infrastruktur layihələrərin icrasına başlanılmışdır. Görülən işlər çərçivəsində Suqovuşan və Xaçınçay su anbarlarında, bu anbarlardan çıxan beton kanallarda da əsaslı təmir işlərinə başlanıldı. İşğaldan əvvəl Suqovuşan su anbarı 7 rayonun 96 min hektardan artıq əkin sahəsinin suvarılmasına xidmət edib. İşğal müddətində Xaçınçay, Ağdamkənd, Köndələnçay və digər işğalda qalan su anbarları kimi, Suqovuşan da baxımsız qalıb. Nəticədə, su sızmalarının sayı artıb. Anbarın yenidən təmiri üçün suyun boşaldılmasına başlanılıb. 5,86 milyon kubmetr tutumu olan anbarın suyu Tərtərçaya axıdılır. Su buraxılıb qurtardıqdan sonra dibinin lildən təmizlənməsi və yamacının 20 sm qalınlıqda beton üzlüyə alınması həyata keçiriləcəkdir.

Cari ildə Ağdam rayonunun Xaçındərbənd kəndi ərazisindəki Xaçın çayının üzərində inşa olunmuş 23 milyon kubmetr tutuma malik Xaçınçay su anbarında da təmir-bərpa işlərinə başlanılmışdır. Anbarın suyu boşaldıqdan sonra dibinin lildən təmizlənməsi və yamacının beton üzlüyə alınması nəzərdə tutulur.

2022-ci il ərzində torpaq məcralı kanalların beton üzlüyə alınması işlərini, həmçinin, Ağdam və Bərdə rayonları ərazisində 258 min kub metr həcmdə kanalların dren və kollektorların lildən təmizlənməsini həyata keçirilib. İdarə tərəfindən bu günə qədər Füzuli rayonu Gecəgözlü kəndi ərazisindən keçən Qurultay arxının 1170 metrdən artıq hissəsinin beton üzlüyə alınması işləri yüksək keyfiyyətlə yerinə yetirilib və hazırda kanalda son tamamlama işləri görülür.

Qeyd etmək lazımdır ki, respublikanın suvarılan torpaqlarının su təminatının və hidrogeoloji-meliorativ vəziyyətinin yaxşılaşdırılması, suvarma normalarının təyin edilməsi, torpaqların şorlaşmasının qarşısının alınması və həyata keçiriləcək zəruri meliorativ tədbirlərin müəyyən edilməsi üçün yeraltı suların səviyyə rejimi və minerallıq dərəcəsi üzərində stasionar rejim-müşahidələrinin aparılması olduqca vacib məsələlərdən biridir. Bu işlər ASC-ni Hidrogeolojui-Meliorativ Xidmət və Suların İstifadəsinə-Mühafizəsinə Nəzarət İdarəsi (HGMX və SİMNİ) tərəfindən həyata keçirilir və rejim-müşühidə materialları əsasında dövrü hesabatlar və xəritələr hazırlanaraq istifadə olunması üçün Cəmiyyətə təqdim edilir.

Suvarılan torpaqların hidrogeoloji-meliorativ vəziyyətinə və meliorativ sistemlərin texniki vəziyyətinə nəzarət etmək üçün 1443293 ha suvarılan ümumi torpaq sahəsinin hidrogeoloji-meliorativ xidmətin nəzarəti təşkil olunmayan 94456 ha torpaq sahələri istisna olmaqla (Quba, Qusar, Xızı, Şamaxı, Qobustan, Gədəbəy və işğaldan azad edilən suvarılan ərazilərdə) 1348837 hektarında kompleks işlərin görülməsi təmin edilmişdir.

HGMX və SİMNİ tərəfindən su obyektlərinin istifadəsinə və mühafizəsinə, eləcə də götürülən suvarma sularından istifadəyə nəzarətin təmin edilməsi ilə yanaşı, bu sahədə proqramların, proqnoz və layihələrin həyata keçirilməsi zamanı ortaya çıxan məsələlərin həlli üçün, standart, norma və qaydaların hazırlanması, onlara riayət olunmasına nəzarət edilməsi, yerüstü su obyektlərinin istifadəsi, mühafizəsi və suların zərərli təsirinin qarşısının alınması üzrə təkliflərin verilməsi istiqamətdə tədbirlər həyata keçirilir.

Hüquqi və fiziki şəxslər tərəfindən sudan istifadə qaydalarına və normalarına əməl olunmasına, meliorasiya və su təsərrüfatı obyektlərinin kadastrına və hidrotexniki qurğuların reyestrinə daxil ediləcək məlumatların vaxtında təqdim olunmasına nəzarət edilməsi, bu normaları və qaydaları pozanlara qarşı istismar idarələri ilə birlikdə müəyyən tədbirlər görülür.

Sonda qeyd etmək istəyirdim ki, Heydər Əliyev ideyalarının, bu müqəddəs insanın bizə miras qoyub getdiyi siyasət kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev əmin ola bilər ki, respublikanın melioratorları və su təsərrüfatı işçiləri bundan sonra da daha səylə çalışacaq, qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün var qüvvələrini əsirgəməyəcəklər.



ANALİTİK+AKTUAL

# Terror izi yenə İrana aparır...

**Dünən səfirliyə, bu gün deputata hücum etdirən Tehran rejimi sabah jurnalistləri də hədəfə ala biləcəyini gizlətmir!**

Azərbaycan parlamentinin deputatı Fazil Mustafaya qarşı edilən xain terror hücumunun ardınca istər mediada, istərsə də sosial şəbəkələrdə bu cinayətin, məhz İrana bağlı şəxslər tərəfindən icra olunması ətrafında müxtəlif mülahizələr irəli sürülməyə başlanıldı. Lakin izlərin də bu istiqamətə doğru aparacağına da şübhə yox idi. Xüsusilə, Tehranda Azərbaycanın diplomatik nümayəndəliyinə qarşı edilmiş xain terror hücumundan sonra baş verən növbəti hadisə bu şübhələri artırırdı.

Daha dəqiq desək, rəsmi Bakının Tehrana dəfələrlə etdiyi müraciətlərinə baxmayaraq, səfirliyimizə edilən qanlı və ölümlə nəticələnən hücumun cinayət əməli olaraq dərindən araşdırılması faktı mövcud deyil. İran rəsmiləri hər vəchlə bu hadisəni "məişət problem" kimi "xaratkerizə" etməklə əslində əsl həqiqəti gizlətməyə bu gün də davam edirlər.

**Əslində, digər bir ölkənin, yəni Azərbaycanın mediasına, mətbuat mənsublarına "bəyanat" xarakterində hədə-qorxu gələn Tehran rejimi...**

Bütün bunlardan sonra Azərbaycan KİV-lərinə, xüsusilə jurnalist araşdırmalarında gəlinən qənaətlərin, işıq üzü görən tənqidi məqalələrin yer alması isə gözlənilən idi. Lakin bu da nədənsə Tehran rejiminin başında oturan şəxslərin xoşlarına gəlməyib və indi də haqlı iradları, bəzən isə ədalətli ittihamları hədəfə almaqla bütün bunların "iki ölkə arasındakı münasibətlərə xələl vuracağı"ətrafında rəsmi və ultimativ bəyanatlar verirlər (???!!!)

Əslində, digər bir ölkənin, yəni Azərbaycanın mediasına, mətbuat mənsublarına "bəyanat" xarakterində hədə-qorxu gələn Tehran rejimi çox yəqin ki, həmin vasitə ilə, daha doğrusu dolayı yolla öz casuslarına sonrakı sifarişlərini ötürür - növbəti hədəf jurnalistlər ola bilər!

Beləliklə, dünən səfirliyə, bu gün deputata hücum etdirən Tehran rejimi sabah jurnalistləri də hədəfə alacağını gizlətmir. Bir halda ki, rejimin casusları xarici ölkələrdə adam oğurluğu, qətllər törədirsə, təhdidlərə yol verirsə, həmin rejimdən istənilən digər kirli əməlləri gözləmək olar.



**İranın casus və terror şəbəkələri - hədəfləri və məqsədləri məlumdur!**

Məhz Milli Məclisin deputatı Fazil Mustafaya qarşı evinin önündə baş vermis sui-qəsd hadisəsi də bu sıradandır. Qeyri-rəsmi məlumatlara görə, aprelin 2-də, gecə saatlarında Bakının kənar qəsəbəsində xüsusi əməliyyat keçirilib. Əməliyyat zamanı Azərbaycan hüquq-mühafizə orqanlarına qarşı silahlardan istifadə olunub. Milli Məclisin üzvü Fazil Mustafaya qarşı törədilmiş silahlı hücumun iştirakçıları olduqları iddia edilən şəxslərin kimliyi məlum olub. Hələlik, bu barədə informasiyanı "Baku ES" Telegram kanalı yayıb.

Fazil Mustafaya qarşı törədilmiş silahlı hücumun iştirakçıları kimi isə şübhəli qismində aşağıda adları hallanan şəxslər göstərilirlər:

Təşkilatçı - Səricanov Azər Kamran oğlu 1976-cı ildə Salyan rayonunda anadan olub. Şiə məzhəbli dindar şəxsdir. 2010-2019-cu illərdə 11 dəfə (!!!) İran İslam Respublikasına səfər edib.

Köməkçi - Əsgərov Elşad Tofiq oğlu 1983-cü ildə Bakı şəhərində anadan olub. Şiə məzhəbli dindar şəxsdir. 2013-2018-ci illərdə 9 dəfə (!!!) İran İslam Respublikasına səfər edib.

Atəş açan - Şirinov Səbuhi Vəliyəddin oğlu 1986-cı ildə Ağdam rayonunda anadan olub. Şiə məzhəbli dindar şəxsdir. 2017-2022-ci illərdə 15 dəfə (!!!) İran İslam Respublikasına səfər edib.

Təəssüflə qeyd etməliyik ki, din və məzhəb pərdəsi altında bu və ya digər ölkələrin xeyrinə casusluq edənlər hər zaman mövcud olublar və son dövrlərdə aparılan operativ əməliyyatlar zamanı saxlanılaraq istintaqa cəlb edilənlərin də əksəriyyətinin İran xüsusi xidmət dairələrinə bağlı şəxslər olması artıq faktlarla isbatlanmaqdadır.

**Əks halda, belə sərsəm bəyanatların irəli sürülməsi Tehranın mollakratiya rejiminə heç bir səmərə verməyəcək**

Qaldı ki Tehranın Azərbaycan mətbuatına qarşı dil uzatmasına, bu gün internet resurslarında İranda dərc edilən və özündə qatı millətçiliyi, irqçiliyi əks etdirən kifayət qədər yazılar, məqalələr qalmaqdadır. İran mediası şovinizm prinsiplərinə söykənməklə əlinə düşən hər fürsətdə türkləri, bəlicaları, kürdləri, eləcə də ölkədə yaşayan digər millətləri təhqir, məsxərə obyektinə çevirir, hətta bunu dövlət səviyyəsində həyata keçirir. Belə olan halda isə molla rejimi onu hədəfə alan yazılara qarşı bəyanat yayıb, bu vasitə ilə Azərbaycan jurnalistlərinə hədə-qorxu gəlməkdənsə yaxşı olardı ki, əvvəlcə öz mətbuatına əl gəzdirsin və nə qədər cılız, həmçinin qəddar, qaniçən olduğunun fərqinə varsın. Əks halda, belə sərsəm bəyanatların irəli sürülməsi Tehranın mollakratiya rejiminə heç bir səmərə verməyəcək.

Son olaraq isə, İranın teokratik hakimiyyəti Azərbaycanda casusluq fəaliyyətləri sübuta yetirilən terrorçu şəxsləri hansı məqsədlərlə təlimatlandırdıqlarını daha müfəssəl şəkildə izah etsin. İzah və etiraf etsin ki, İran artıq bir terrorçuluq mərkəzi olması ilə yanaşı, həm də açıq-aşkar terroru dəstəkləyən bir dövlətə çevrilib!

*Rövşən RƏSULOV*





28.03.2023-cü il tarixdə millət vəkili Mustafa Fazil Qəzənfər oğluna qarşı törədilmiş silahlı hücumun iştirakçıları

Təşkilatçı:

Səricanov Azər Kamran oğlu – 1976-cı ildə Salyan rayonunda anadan olub. Şiə məzhəbli dindar şəxsdir, 2010-2019-cu illər aralığında 11 dəfə İİR-ə səfər edib.

Atəş açan:

Şirinov Səbuhi Vəliyəddin – 1986-cı ildə Ağdam rayonunda anadan olub. Şiə məzhəbli dindar şəxsdir, 2017-2022-ci illər aralığında 15 dəfə İİR-ə səfər edib.

Dəstənin digər üzvləri:

Əsgərov Elşad Tofiq oğlu – 1983-cü ildə Bakı şəhərində anadan olub. Şiə məzhəbli dindar şəxsdir, 2013-2018-ci illər aralığında 9 dəfə İİR-ə səfər edib.

Əliyarov Emin Rafiq oğlu – 1970-ci ildə Bakı şəhərində anadan olub. Şiə məzhəbli dindar şəxsdir, 2004-2015-ci illər aralığında 3 dəfə İİR-ə səfər edib.

# Ucuz penisillinin bahalı nəsli

## Antibiotiklərdən həddsiz istifadədə orqanizmi məhv edir

***Antibiotik təyinatı səbəbindən ölüm hallarının baş verməsi statistikasında ən yüksək rəqəm 2019-cu ilə aiddir. Həmin il dünyada 1,2 milyondan çox insan antibiotiklərə qarşı müqavimət səbəbindən həyatını itirib. Bir çox hallarda ölümcül xəstəliklərlə mübarizədə əvəzsiz vasitə hesab edilən antibiotiklər həkim təyinatı olmadan kor-koranə alınar və qəbul edilərsə insan orqanizminə faydadan çox zərər verir.***



### Dövrünün xilaskarı - Penisillin

Antibiotiklərin bir çox növü var, təyinatı orqanizmdəki bakteriya infeksiyasını müalicə etməkdir. Antibiotiklərin əcdadı Penisillin 1929-cu ildə Aleksandr Fleminq tərəfindən kəşf edilib. 1940-cı illərdə kommersiya miqyasında satışa buraxılanda insanlar ona möcüzə kimi baxırdı, çünki infeksiya bir çox insanın ölümünə səbəb olmuşdu. Penisillinin kəşfi dünya təbabətini kökündən dəyişdi. Bu, ilk antibiotik idi. Onsuz bir çox xəstəliklər əlacsız olardı və insan ömrünün orta uzunluğu müasir dövrdəkindən xeyli aşağı olardı. İkinci Dünya Müharibəsində milyonlarla əsgərin həyatı məhz penisillinə görə xilas edildi.

İnfeksiyanın yerinə və növünə görə fərqli antibiotik təyin edilir. Məsələn daxilə qəbulu ya damar yolu, ya ağızdan olur, eləcə də qulaq və gözə damladaraq, həmçinin krem halında dəriyə çəkilərək antibiotik qəbul etmək mümkündür.

Tərkibində 1 qram tseftraksion preparatı olan Rusiya istehsalı antibiotiklərin bir ədədi 80 qəpikdir, amma eyniadlı firma istehsalı antibiotikin içində eyni miqdarda olan ədədi ən ucuz halda 3-4 AZN-dən başlayır. 10 günlük antibiotik müalicəsi ənənəvi yolla 8 manat edirsə, firma preparatları ilə bu məbləğ ən yaxşı halda 3-4 dəfə artır. İki seçim arasındakı fərq odur ki, əgər xəstə ənənəvi antibiotiklə normal halda 5 günə sağalmalıdırsa, firma antibiotikləri bu prosesi tezləşdirir. Xəstə düşünür ki, ənənəvi dərmanın gücü çatmadı, amma firma dərmanı xəstəliyə qalib gəldi. Lakin sağalma müddətinin tezləşdirilməsi orqanizm üçün zərərlidir.

### Qızdırma zamanı antibiotik təyin edilərsə...

Antibiotikin ciddi təsirlərini diqqətdə saxlamaq, təyinatsız qəbulunun qarşısını almaq və insanları onunla bağlı məlumatlandırmaq üçün 2012-ci ildən bəri 18 noyabr tarixi antibiotik günü kimi qeyd edilir. Adi qrip və soyuqdəymədə belə istifadə etməyi adət halına çevirən insanları məlumatlandırmaq üçün antibiotiklərin insan orqanizminə verdiyi zərərlər barədə elmi konfranslar keçirilir, məqalələr hazırlanır. Antiobiotik təyinatına ehtiyac olan xəstəliklərdə düzgün istifadə edilməyən bu preparat lazımı dozada istifadə edilmədiyi təqdirdə ciddi fəsadlara yol açır.

Qızdırma zamanı antibiotiklə müalicə yolverilməzdir, amma o qızdırmaya səbəb hər hansı bir infeksiyadırsa antibiotik təyin edilə bilər. Antibiotik qəbulunu yalnız doza çərçivəsində etmək lazımdır, əks halda yüksək doza bədəndə antibiotikə müqavimət yaradaraq təsirini minimuma endirər.

Doğrudur, penisillin kəşf edildikdən illər sonra fərqli adlarda, fərqli markalarda bir çox antibiotik istehsal edildi. Tibb dünyası yeni antibiotiklər istehsal etmək məcburiyyətindədir, çünki bakteriyalar həddindən artıq ağıllıdır. Bakteriayalar özlərində antibiotiklərə qarşı müqavimət yaradırlar. Cəmiyyətdə antibiotik istifadəsi nə qədər çoxdursa müqavimət də bir o qədər artıqdır. Xüsusilə də səhv və lazımsız zamanlarda istifadə edilən antibiotik buna səbəb olur.

### Hər 3 pasiyentdən birinə...

Ölkəmizdə hər 3 reseptdən birinə antibiotik yazılır, həkimlərin əksəriyyəti təyin etdikdə pasiyentdən indiyədək neçə doza antibiotik qəbul etdiyini soruşmur. Antibiotiklərin nə zaman, hansı xəstəlikdə, neçə doza və nə qədər müddətə istifadə edilməsi çox vacib məsələdir, əks halda fəsad yarada bilər və getdikcə antibiotikə qarşı müqavimətə səbəb ola bilər ki, bu da xəstəliklərin tüğyan eləməsinə təkan yaradar. Həkim antibiotik təyin edəndə pasiyentinə qəbul qaydalarının vacibliyini, kor-koranə qəbul edilməməsini başa salmalıdır. Eyni zamanda, hər həkim antibiotik yazdığı xəstənin daha əvvəllər antibiotik qəbul edib-etməməsini öyrənməlidir.

Antibiotik təyin edilləndə öncə yoxlamaq üçün test edilməlidir, xəstəyə çox az miqdarda tətbiq edərək orqanizmə təsiri yoxlanmalıdır. Antibiotiklər sağaltdıqları qədər zərər də verə bilir. Xüsusilə də bağırsaq mikroflorasını məhv edir, göbələk infeksiyasına səbəb olur. Allergik reaksiyalar verə bilir, qaraciyərə və böyrəyə zərər verir. Ən vacib təsiri isə orqanizmin təbii maddələr mübadiləsini pozaraq həzm sistemini alt-üst etməsidir. Lazımsız və uyğunsuz təyin edilən antibiotiklər xəstəliklə mübarizə etmir, əksinə orqanizmin antibiotiklərə müqavimətini artırır.

Hazırda dünyada təxminən 200 növ antibiotik istifadə olunur. Tətbiq edildiyi əksər hallarda antibiotik gərəksiz olur. Antibiotik təyin edilən hər 3 pasiyentdən birinin buna ehtiyacı yoxdur, antibiotik təyin edilənlərin demək olar ki, 30 faizi onu düzgün istifadə etmir. Dünyada ən çox antibiotik istehsal və istifadə edən Çində hər il 80 min insan antibiotikdən istifadə zamanı ölür.

Hər il dünyada 25 min insan antibiotiklərdən düzgün istifadə etmədiyi üçün ölür. Səhv istifadəsi bağırsaqlara, beyinə, ürəyə, böyrək və qaraciyərə pis təsir edir. Bir çox pediatr yuxarı tənəffüs yollarının infeksiyasına antibiotik təyin edir, bu Avropa ölkələrində qətiyyən belə deyil. Bizdə aptekdən reseptsiz almaq olur, amma Avropada yox.

### Həkimsiz əsla!

Hər bir xəstəliyin klinik gedişindən asılı olaraq antibiotikə ehtiyac olub-olmaması sualı ortaya çıxır və bu qərarı ancaq həkim verməlidir. Xəstəlik törədicilər müxtəlif antibiotiklərə həssas olurlar. Həssaslığı isə laborator müayinədən sonra dəqiqləşdirmək olur. Yəni gözüyumulu antibiotik təyini düzgün deyil. Virus xəstəliklərində isə, ümumiyyətlə, antibiotik təyin olunmur. Təəssüf ki, bir az qızdırma olan kimi valideynlər uşağa özləri antibiotik verirlər. Buna ehtiyac olmadığına görə lazımsız dərman qəbulunun fəsadları qaçılmaz olur.

Pediatr Mahir Əsədov deyir ki, əgər valideyn deyirsə uşağın boğazı ağrıyır, bu qətiyyən angina anlamını vermir: "Çünki boğaz ağrısı adi soyuqdəymədən də ola bilər və bu halda antibiotikə ehtiyac yoxdur. Anginalarda isə antibiotik təyin olunur və bu qərarı yalniz həkim verir. Bəzi antibiotiklərin təyinatında yaş limiti var. Yəni bəziləri 8, bəziləri isə 14 yaşa qədər təyin olunmur. Hamilə və süd verən qadınlarda antibiotik təyinatında çox ehtiyatlı olmaq lazımdi. Bu halda da qərarı yalnız həkim verir. Bu məsələdə aptek işçilərinin də günahkar olduğunu etiraf etmək lazımdır".

Qeyd edək ki, bir qrup antibiotiklərdən ev şəraitində istifadə etmək olmaz. Ümumiyyətlə, antibiotiklərdən özbaşına istifadə qətiyyən yolverilməzdir. Həkim bizə bu halda yaranacaq fəsadları da dedi: "Birinci, allergik reaksiyalar ola bilər. Bəzən hətta "anfilaktik şok" deyilən çox təhlükəli fəsad verir. Bu hal bəzən ölümlə nəticələnir. Biz bunun acı nəticəsini ötən il anasının iynəsindən şoka girib ölən gənc oğlanda da gördük.

İkinci, disbakterioz-mədə-bağırsaq pozğunluqları yarada bilər. Bu problem son vaxtlar çox geniş yayılıb. Üçüncü, kandidoz-göbələk xəstəliyi. Bu problem də "özfəaliyyətin" nəticəsində yaranır. Dördüncü, bəzi antibiotiklər qulağa, qara ciyərə və böyrəyə toksiki təsir göstərir. Yəni bu orqanları sıradan çıxarır. Beşinci, qanda hemoliz yaradırlar, yəni qanı parçalayırlar. Bu kimi fəsadları çox sadalamaq olar. Bütün xoşagəlməz hallardan sığortalanmaq üçün həkim təyinatı olmadan antibiotklərdən istifadə etməmək məsləhətdir".

*Lalə Mehralı*



## Annanın həqiqəti - Azərbaycanın şücaəti, Ermənistanın rəzaləti

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Ermənistanın baş nazirinin arvadı Anna Akopyanın ölkənin regionlarının birinə səfəri zamanı reallığı əks etdirən etirafı etməsi yenidən erməni cəmiyyətini bir-birinə vurub. Buna səbəb isə Akopyanın 2020-ci ildə baş vermiş 44 günlük müharibədə Ermənistan Ordusunun təxminən 25%-inin, yəni 11 min nəfər fərarisi olduğunu etiraf etməsidir. Belə ki, Anna Akopyan Nikol Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf edib.***

"Biz reallığı itirməyi sevirik və hər zaman mənə maraqlı olub ki, biz nəyə görə həqiqəti gizlədirik? Bu gün mən reallığın necə olduğunu deməyə məcburam. Reallıq isə budur ki, 44 günlük müharibə zamanı bizim 11 min fərarimiz olub. Məhz fərarilər və mən ayrı cür ifadə edə bilmirəm. Siz heç bilirsiniz söhbət nədən gedir? Siz təsəvvürünüzə gətirirsiniz 11 min fərari nə deməkdir?", deyə Akopyan sual edib.

Onun sözlərinə görə, Paşinyan könüllülərə çağırış edəndə bu çağırışa məhəl qoyan olmadı və o, bir qadın olaraq dəstə formalaşdırmağı və savaş zamanı buna nə qədər tələbatın yarandığını qadınların da müharibəyə qoşulması vasitəsi ilə göstərməyə çalışıb. Lakin bu cəhddən sonra da hər hansı bir müsbət təsirlər yaranmadı. "Bu haqda danışmaq lazımdır. Biz reallığı gizlətməməliyik", deyə qeyd edən Anna Akopyan xatırladıb ki, hazırda İrəvanda məhkəmə işləri gedir və mühakimə edilənlər ordu zabitləri, əsgərlər, müharibə vaxtı qarşı tərəfə informasiya ötürənlərdir: "Bu, dövlətə xəyanətdir. Sən, sənə etibar edilən sərhədi tərk edirsən. Biz 44 günlük müharibəyə geri baxmalı, öz fəaliyyətimizin təhlilini aparmalı və utanmadan etiraf etməliyik ki, biz qorxurduq. Hər kəs qəhrəman ola bilməz. Ancaq bunu gizlətmək də utanç hissi yaradır. Mən bilmirəm ki, bu sözlərimdən sonra nə danışacaq, mənim haqqımda nə düşünəcəksiniz. Amma biz öz dövlətimizin sahibləri olmalı və gələcəyimizi qoruyub-saxlamalıyıq".

Yeri gəlmişkən, Anna Akopyanın bu fikirlərindən sonra erməni cəmiyyətinin içində ciddi fikir ayrılıqları və qarşıdurmalara start verilib. Xüsusilə, sosial şəbəkələrdə Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında ziddiyyətlər, qarşılıqlı ittihamlar səslənməyə başlayıb. Tərəflər bir-birini qorxaqlıqda, xəyanətdə ittiham ediblər. Ermənistan erməniləri Qarabağ ermənilərinin İrəvana və ölkənin digər şəhərlərinə doluşduqlarını, onların həyatlarını pozduqlarını, Qarabağ erməniləri isə Ermənistan hakimiyyətini müharibəyə səbəb olan bəyanatlar səsləndirdiyini bildirirlər. Ancaq fakt budur ki, əslində bütövlükdə erməni cəmiyyəti - istər Qarabağda, istəsə də Ermənistandakı insanlar bu düşüncələrin - işğalçılıq hisslərinin və revanşizmin onları belə bir ağır duruma sürüklədiyinin fərqinə varmırlar. Daha dəqiq desək, erməni düşüncəsinin özünütəcrid və özünüməhvetmə faktorlarına söykənməsi bu reallıqları üzə çıxarmaqdadır.

Lakin əsas fakt budur ki, Ermənistanın 11 min fərarisinin olması reallığı Qarabağ torpaqlarının Azərbaycana məxsusluğunun sübutudur. Daha dəqiq desək, müharibəni tərk edən bu insanlar başqa ölkənin torpaqları uğrunda can qurban vermənin, ölkənin əhəmiyyətsizliyini anlayıblar. Həmçinin, bu fakt Azərbaycanla müqayisə edildikdə də özünü kifayət qədər isbatlamış olur. Belə ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə xalqa müraciəti və eyni zamanda, xalqın bir yumruq kimi birləşərək torpaqlarının azad edilməsi yönündə mübarizəyə qoşulması özü-özlüyündə hər şeyi gün kimi aydınlığa çıxarır. Bunun nəticəsidir ki, Azərbaycan Ordusunda 1 nəfər belə fərari olmamadı, əksinə, hərbi komissarlıqların qarşısı hər gün könüllü müharibəyə getmək istəyən vətənpərvərlərimizlə dolub-daşdı. Döyüşlərə atılmaq üçün Azərbaycan gənclərinin tələsmələri, cəbhəyə böyük ruh yüksəkliyi ilə getmələri isə beynəlxalq aləmi belə heyrətə gətirmişdi. Bütün bunlardan sonra Anna Akopyanın reallıqları, həqiqəti önə sürməsi Azərbaycanın şücaəti, Ermənistanın isə rəzaləti kimi qiymətləndirilə bilər.

# Mətbuatın vergidən azad edilməsi nəyi dəyişəcək?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*



Xəbər verildiyi kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiq edib. Dəyişikliyə əsasən media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq maddi yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsinin isə əlavə dəyər vergisindən 3 il müddətinə azad olunub.





Azərbaycan dövləti sağlam cəmiyyətin formalaşması üçün ictimai institutların inkişafına həmişə dəstək verir. Ümumilli lider Heydər Əliyev də daim medianın, ictimai instututların inkişafı üçün bu sahələrə dəstək verib. Bu gün həmin siyasəti Prezident İlham Əliyev davam etdirir. Dövlət başçısı indiyə qədər də medianın inkişafı üçün müxtəlif səviyyəli dövlət dəstəkləri verib. Bu son fərmanla təsdiq olunan Vergi Məcəlləsinə dəyişikliklər medianın maddi-texniki bazasının, maliyyə müstəqiliyinin yaranması üçün çox böyük bir imkan yaradacaq.

Məlum olduğu kimi, hazırda media orqanlarının çoxu maliyyə problemləri ilə qarşılaşır, yeni qlobal çağırışlara uyğunlaşmaq, daha peşəkar fəaliyyət göstərmək üçün son texnologiyalardan istifadədə çətinlik çəkir. Media subyektlərinin vergilərdən azad edilməsi onların xərclərini xeyli azaldacaq, maliyyə gəlirlərini öz inkişafları üçün xərcləməsinə şərait yaradacaq. Nəticədə media orqanlarımız qısa müddətdə öz maddi-texniki bazasını, maliyyə imkanlarını gücləndirəcək, daha peşəkar kadrların cəlb edilməsini təmin edəcək və dünya səviyyəsində informasiya mərkəzlərinə çevriləcək.



Hazırda yazılı medianın getdikcə zəiflədiyini, onun yerini sosial şəbəkələrin tutduğunu görürük. Mətbuta orqanlarının madii vəziyyətlərinin zəif olması onların peşəkar və opreatix xəbər hazırlayıb yaymaq imkanlarını məhdudılaşdırır. Nəticədə sosial şəbəkə kanalları üstünlüyü ələ alır.

Klassik medainın yerini social medianın tutmasının problemi tərəfləri çoxdur. Sosial mediaya nəzarətin olmaması çox ciddi problemlər yaradır. Biz bunu müxtəlif vaxtlarda və kritik situyasiyalarda dəfələrlə görürük. Dezinformasiyalar, qərəzli, böhtan xarakterli mayteriallar çoxalır. Bundan hətta "reket jurnalistlər" biznes qururlar. Artıq sosial şəbəkələrdə on minlərlə kanal, səhifə açılıb və bunun adı media qoyulub. Oxucular da oxuyanda bunu mətbuat hesab edirlər. Bu halda istənilən dezinformasiyanı yaymaq, təxribat törətmək asanlaşır.

Mətbuat təkcə xəbər mərkəzi deyil, o analitik yazılar, araşdırmalar, müsahibələr hazırlamalı, müxtəlif problemləri işıqlandırmalıdır. Bunları etmək üçün isə mətbuatln normal maddi-texniki bazası və kadr heyəti olmalıdır. Bunların olması üçün də maliyyə tələb olunur.

Hazırda oxucu auditoriyası minlərlə sayt arasında bölüşüb. Hər bir sayta məhdud sayda oxucu düşüb. Media orqanlarının sayının az olması daha effektlidir. Məsələn hər hansı bir hadisəni kütləyə çatdırmaq üçün iri media resursları daha effektlidir, bu halda çatdırılan məlumatı məhdud sayda oxucu kütləsi deyil, daha geniş kütlə oxuyar.

Xırda, zəif və çoxsaylı media orqanlarında təmərküzləşmə prosesi getməlidir. Bu təmərküzləşmə prosesinə əsasən bir neçə media orqanı birləşərək, böyük media mərkəzləri formalaşmalıdır. Kiçik saytların işçi qüvvəsi saxlaya bilməməsi və ya bir neçə nəfərlə ortaya ciddi media qoyması mümkün deyil. Onun xaricdə və ölkənin regionlarında müxbir postları yoxdur. Peşəkar işləmək üçün çoxsaylı kadrlar olmalıdır.

Dünyaya çıxmaq üçün çoxsaylı işçi qüvvəsi olan - peşəkart saytlar, qəzetlər, informasiya agentlikləri olmalıdır ki, dünyanın hər yerindən xəbər versin. Maraqlı təhlillər, araşdırmalar ortaya qoysun və nüfuz qazana bilsin. Bütün bunlar olmadan media subyektləri özünü maliyyələşdirə bilmir. Özünü maliyyələşdirə bilməyən media heç zaman peşəkar, tərəfsiz ola bilməz. Dünyada, ölkədə ictimaiyyət arasında nüfuz qazana bilməz.

Son zamanlar Medianın İnkişafı Agentliyinin bu sahədə həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. Lakin bəzi sahələrdə də tənzimləmələr aparılmalıdır. Mediada azad reklam bazarı olmalıdır. Bu özünü maliyyələşdirmə prosesində əsas rol oynayır. Reklamların verilməsi strukturu qaydaya salınmalıdır.

Ona görə də, ilk vaxtlarda media orqanlarına maliyyə yardımı lazımdır. Hər hansı bir media özünü tam doğruldanadək ona edilən yardımlarla, peşəkarları ətrafına toplamalı və onları əlində saxlamağı bacarmalıdır. Peşəkarlıqdan kənar, təcrübəsi olmayan ucuz işçi qüvvəsinin olması mediada özünü doğrultmayan, yalnış materialların yayımlanmasına səbəb olur.

Media sektorunda ən əsas problemlərdən biri də, jurnalistlərin sosial vəziyyətidir. Azərbaycanda jurnalistlərin sosial vəziyyətinin ağır olması, çətin şəraitdə çalışması heç kimə sirr deyil. Bu sahədə çalışanların 80 faizindən çoxunun şəxsi mənzili yoxdur, onsuz da aşağı olan əməkhaqqının yarısı kirayə haqqına sərf olunur. Düzdür, cənab Prezidentin sərəncamı ilə jurnalistlər üçün 3 bina tikilib və paylanıb, amma ölkədə on minlərlə jurnalistin mövcudluğu şəraitində bu problemin həllindən danışmaq olmaz.

Təsəvvür edin ki, jurnalistlər eyni işə görə 10 -15 il öncə də eyni əməkhaqqı alırdı, indi də. Bu müddətdə başqa sahələrdə çalışanların maaşlarında dəfələrlə artımlar edilib, bazar-dükanda qiymətlər neçə dəfə artıb. Başqa sözlə, jurnalistləri ölkənin aztəminatlı hissəsinə aid etmək olar. Azərbaycanda aylıq yaşayış minimumunun 250 manat olduğunu nəzərə alsaq, ortalama 500 manat əməkhaqqı alan jurnalistin ailəsində adambaşına bu məbləğdən xeyli aşağı vəsait düşdüyünü aydın görmək olar. Təxminən yaşayış minimumdan 2 dəfə aşağı. Belə bir ağır vəziyyətdə yaşayan, problemlərdən başı açılmayan insandan hansı iş keyfiyyəti, hansı peşəkarlıq, hansı iş həvəsi gözləmək olar?

Bütün bunlar isə media orqanlarının maliyyə imkanlarının zəif olması ilə bağlıdır. Ona görə də, dövlət güzəştlərinin və dəstəyinin rolu mühümdür. Dövlətin yardım və güzəştləri olmasa, bizim qəzetlər dərhal sıradan çıxar. Mübaliğəyə yol vermədən demək olar ki, bu gün çap mətbuatı əsasən dövlətin çiyinlərində ayaq tutub dayana bilir.

Həmçinin reklam bazarının olmaması da qəzetlərin öz maddi dayanıqlıqlarını təmin etməyə imkan vermir. O baxımdan, qəzetlərin çap, maaş-qonorar və digər xərclərini nəzərə aldıqda, onların maddi vəziyyətinin ağırlığını təsəvvür etmək çətin deyil. Şübhəsiz ki, dövlətin, MEDİA-nın qəzetlərə, jurnallara maddi dəstəyi olmasa, dövri nəşrlərin əksəriyyətinin mövcudluğu sual altına düşərdi.

Qəzet-jurnal yeganə media vasitəsidir ki, onun üçün pul ödəmək lazımdır, amma oxucuların çoxu internetdən pulsuz şəkildə istənilən məlumatı ala bilir, təhlilləri və araşdırmaları oxuya bilir.

Arzu edərdik ki, qəzet və jurnallar elə işləsin ki, onların "bu pulu verməyə dəyər" deyə düşünən oxucusu çox olsun. Onların satışdan və reklamdan gəlirləri artsın, onda ortada əsl peşəkar mətbuat olar və heç bir qüvvə onu sıradan çıxara bilməz. İnternet nə qədər inkişaf etsə də, hələ uzun müddət kitablara, qəzetlərə, jurnallara tələbat olacaq və olmalıdır. Bircə şərtlə ki, bu çap məhsulları səviyyəli materiallarla oxucuları cəlb edə bilsin.

Belə bir şəraitdə mətbuat orqanlarının vergidən azad edilməsi onlara öz xərclərinin bir hissəsinə qənaət etmək imkanı yaradacaq və həmin vəsaitlər mətbu orqanın inkişafına və əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilə bilər. Ona görə də, bu dəyişiklik və edilən güzəşt hər cəhətdən müsbət qiymətləndirilir.

**Elçin Bayramlı**

ANALİZ

Səs

4 aprel
2023-cü il

# Messi:

## maaşıma dəyməyin!



PSJ-nin futbolçusu Lionel Messi klubu ilə müqaviləni yeniləmək üçün maaşını azaltmaq fikrində deyil. SİA-nın "Goal"a istinadən xəbər verir ki, argentinalı hücumçu bununla bağlı öz mövqeyini komanda rəhbərliyinə izah edib. Bildirilib ki, 35 yaşlı oyunçunun hazırkı maaşını saxlamaq və ya artırmaq üçün Paris təmsilçisi maaş fondunu demək olar ki, 30 faiz azaltmalıdır.

Qeyd edək ki, Messi bu mövsüm PSJ-də 32 oyunda 18 qol vurub və 17 qolun ötürməsini verib. Onun klubla müqaviləsi bu ilin iyununda başa çatır.

# Ramazanda hansı savab işlər görülməlidir?



"Ümumiyyətlə, Ramazan ibadət ayıdır. İbadətdə bütün savab və xeyirli işlər, müsbət addımlar, yaradana xoş gedə biləcək əməllərdir". Bu sözləri SİA-ya açıqlamasında Hacı Təyyar Hüseynli deyib.

Onun sözlərinə görə, bilirik ki, Ramazan ayında imsak dediyimiz süfrələr olur: "Yaxud da axşam iftar süfrəsi olur. Bu süfrələrdə qidalara ehtiyac yaranır. Mənim daha səmimi və isti münasibət təklif etdiyim savablardan biri ilk olaraq yaxın qohum və qonşuları axtarıb aramaqdır. Buyurulur ki, insanlar bir-birindən 3-7 gündən gec xəbərsiz qalmamalıdır. Ola bilər ki, bu 3-7 gün ərzində yaxın qohum, yaxud qonşu hər hansı bir səfərə getsin. Onların maddi-mənəvi halından xəbərdar olmaq, araşdırmaq lazımdır".

Hacı Təyyar Hüseynli sözlərinə belə davam edib: "İmsak süfrələrinə lazım olan nə varsa, həmin o insanlar üçün almaq lazımdır. Bunun üçün də çox vəsaitə ehtiyac yoxdur. Məsələn, imsak üçün onlara bir neçə yumurta və bir az pendir və s. alsaq kifayət edər. Bu, böyük savabdır. Hətta oruc olmayan insanlara da bunu etmək savabdır. Bununla qəlblər də sevinər. Çünki imsak və iftar süfrələri yaradanın bizə il ərzində bəxş etdiyi ən qeyri-adi süfrədir.

Elə ibadətlər var ki, iftardan sonra olur. Orucluq ildə bir dəfə olan gözəllik, birlik və həmrəylik dünyasıdır. Oruc vaxtı insan daha xeyirli işlər etməlidir. Məsələn, qohum-əqrabada xırda ehtiyaclar var ki, onlara da yardım etmək olar. Əgər bu onun üçün çox, sizin üçün az bir məbləğdirsə kömək etmək və onu bu sıxıntıdan azad etmək savabdır. Yaxud qohum-qonşuda xəstə varsa, orucluq zamanı onun bir aylıq dərmanlarını almaq, ya da həkimə aparmaq böyük savabdır. Bu ay bir fürsətdir. Bu ayda bir ayə Quran oxumaq, bütövlükdə Qurani-Kərimi oxumağa bərabərdir".

*A. Vəli*



## Bu aktrisanın 400 milyon dollarlıq sərvəti var

**Oskar mükafatlı ABŞ aktrisası Reese Vitherspoon keçən həftə ikinci əri, menecer Cim Totdan boşanacağını açıqlamışdı. SİA xarici mətbuata istinadən xəbər verir ki, Vitherspoon bu qərarında ona 400 milyon dollar sərvət qazandıran iş dünyasındakı konsentrasiyası təsir edib. Üç uşaq anası olan ulduz ABŞ-ın ən nüfuzlu işgüzar beyinləri arasındadır. 2021-ci ildə kino şirkətini 900 milyon dollara satan Reese Vitherspoonun karyera seçdiyi deyilir.**

## ELAN

Üzeyir Hacıbəyli ad.Bakı Musiqi Akademiyasının 29 mart 2023-cü il tarixində dərc olunan elanı etibarsız sayılsın.

## Pəhriz qaydalarına hansı halda riayət etmək lazımdır?



*MÜTƏXƏSSİS AÇIQLADI*

**"Şəkərli diabet insulin ifrazının, insulinin təsirinin və ya hər ikisinin pozulması nəticəsində meydana çıxan hiperqlikemiya ilə gedən xroniki metabolik xəstəlikdir. Şəkərli diabet bir neçə növə ayrılır. Bunlardan ən çox görülən şəkərli diabet tip 1(10-15%), tip 2 (80-85%) və hamiləlik diabetidir". Bu sözləri SİA-ya açıqlamasında Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, endokrinoloq Oqtay Hüseynov bildirib.**

**Onun sözlərinə görə, diabetin müalicəsində 3 prinsip var:**

**1) pəhriz**

**2) fiziki aktivlik**

**3) şəkərsalıcı dərmanlar və insulin müalicəsi.**

**"Diabetin bütün tiplərində pəhriz qaydalarına riayət etmək lazımdır. Şəkərli diabet tip 1 xəstələri çörək vahidlərinə uyğun olaraq insulin dozasını vurmalıdırlar. Bu qaydaları onlar üçün təşkil olunmuş diabet məktəblərində öyrənə bilərlər.**

**Şəkərli diabet tip 2 və hamiləlik diabeti olan xəstələr isə pəhriz qaydalarına ciddi riayət etməlidirlər. Pəhriz qaydaları diabet masasına uyğun olmalıdır. Qidalanma aşağı qlikemik indeksli qidalardan ibarət olmaqla, zülal (60%)-karbohidrat (25%) - yağ (15%) olmalıdır.**

**Ramazan ayını nəzərə alaraq şəkərli diabet tip 1, hamiləlik diabeti və ağır forma tip 2 xəstələrə oruc tutmaq tövsiyə olunmur".**

***Səbinə Hüseynli***

# "İstəyənin bir üzü, verməyənin iki üzü qara olsun!"

"Ataların sözü olmasın "İstəyənin bir üzü, verməyənin iki üzü qara olsun!". Pul tələb etmək yaxşı hal deyil, lakin bu kimi hallar təkcə məktəblərdə baş verir? Paytaxtdakı 49 nömrəli "İntellekt" məktəb-liseyində valideynlərdən vəsait tələb olunmasına dair yayılan səs yazıları ilə bağlı onu bilirəm ki, Bakı şəhəri üzrə Təhsil İdarəsi tərəfindən aparılan müvafiq araşdırmanın nəticələrinə əsasən məktəb-liseyin direktoruna Əmək Məcəlləsinin müvafiq maddəsinin, müvafiq hissəsinin, müvafiq bəndinə əsasən sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib. Məktəb-liseyin təlim-tərbiyə işləri üzrə direktor müavininin ərizəsi nəzərə alınmaqla əmək müqaviləsinə xitam verilib. Müəllimlərlə bağlı da qanunauyğun tədbirlərin görülməsi təmin ediləcək". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.

Nadir İsrafilov sözlərinə belə davam edib: "Yaqin ki, hər kəs razılaşar ki, məktəbin fəaliyyətinə uyğun olmayan və müəllimin nüfuzuna xələl gətirən hallara qarşı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlərin görülməsi hər zaman diqqət mərkəzində saxlanılmalı və təqdir olunmalıdır. Anlaşılmayan isə odur ki, bir mənbəədən "Pul yığan lisey direktoruna şiddətli töhmət verildi", "Bakıda müəllim valideynlərdən pul istədi", "Bakıda müəllim müalicəsi üçün şagirdlərdən pul yığıb" kimi yazı başlıqlarının manşetə çıxarılması məsənin əsl mahiyyətini aydınlaşdırmaqda müəyyən problemlər yaradır. Çünki, hüquqi baxımdan "pul istəmək", "pul yığmaq", "pul tələb etmək" tam fərqli anlayışlardır.

Yayılan məlumatlara əsasən əgər hansısa müəllim rəhbərlik etdiyi sinfin valideyn qrupuna səs ataraq pul istəyibsə, nəyə görə cəzanın ən böyüyünü pul istəyən müəllim deyil, məktəbin direktoru almalıdır və direktor müavininin əmək müqaviləsinə xitam verilməlidir? Yox, əgər direktor müavininin də bu işdə əli varsa, elə isə o niyə Əmək Məcəlləsinin müvafiq maddəsinin, müvafiq bəndinə əsasən deyil, ərizəsi nəzərə alınmaqla işdən azad edilməlidir? Yayılan məlumatlarda bir müəllimin adı hallanırsa, o da "Mən pul üçün məcbur etmirəm. Gücünüz çatan məbləği verin və siyahı tutulsun" deyə xahiş edirsə, aparılan müvafiq araşdırmanın nəticələrinə əsasən "Müəllimlərlə bağlı da qanunauyğun tədbirlərin görülməsi təmin ediləcək"- nə deməkdir? Hansı müəllimlərlə...? İndi gəl baş aç görüm, günah kimdədir, pul yığan müəllimdə, yoxsa pul verən valideynlərdə? İstənilən halda ataların sözü olmasın "istəyənin bir üzü, verməyənin iki üzü qara olsun!" Suallar çoxdur, ancaq məsələnin mahiyyəti təkcə bunda deyl. Cavab tələb edən sual başqadır. Pul tələb etmək təkcə müəllimin alnına yazılıb, bəlkə, bu kimi hallara başqa sahələrdə heç təsadüf olunmur? Yazmağına yazaq, audio yazıları və video çəkilişləri etməyinə edək, ancaq heç olmasa ədalət naminə də olsa bir az da məktəbi, müəllimi dinc qoyub, bir müddət də başqa sahələrdən, digər peşə sahiblərindən yazaq, heç olmasa kimin kim, nəyin nə olduğunu fərqləndirmək üçün...".

Məsələ ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsindən SİA-ya bildirilib ki, araşdırmanın nəticələrinə uyğun olaraq məktəb-liseyin direktoru Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib. Belə hallara təkrar yol verildiyi halda daha ciddi tədbirlər görüləcəyi bildirilib. Məktəb-liseyin təlim-tərbiyə işləri üzrə direktor müavininin ərizəsi nəzərə alınmaqla əmək müqaviləsinə xitam verilib. Qeyd edilib ki, məktəbin fəaliyyətinə uyğun olmayan və müəllimin nüfuzuna xələl gətirən hallara qarşı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlərin görülməsi hər zaman diqqət mərkəzində saxlanılır.

*Ayşən*

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**